# QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"Səs" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 041 (6241) 4 mart 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# "Pakistanla hərbi sahədə əməkdaşlığımız dünyada sülhün bərqərar olunmasına töhfə verəcək"



## Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib

## Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib

Bax 5



İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış...

## Paşinyan parlamentdə tribunaya çıxmaqdan imtina edib



Yerevanda Ermənistanın baş naziri Nikol Paşinyanın istefası tələbi ilə növbəti etiraz aksiyası başlayıb. "İki sahil" xəbər verir ki, etirazçılar parlament binasının önünə toplaşıb.

Bax 5

## Fransalı siyasətçi: "Erməni xalqı sülhün bərpası üçün həqiqətləri bilməlidir"



"Fransada böyük erməni icması yaşayır və bu da ölkənin üzərinə Azərbaycan-Ermənistan arasında sülhün bərpa olunmasında böyük məsuliyyət qoyur. Nəhayət, Fransa həm BMT-nin üzvü, həm də Azərbaycanın dostu kimi məsuliyyətini...

Bax 11

## Freedom House: "Ermənistan azad ölkələr arasında deyil"

Bax 14

Ermənistan qismən azad ölkələr arasındadır, yəni, azad ölkələr arasında deyil. SİA xəbər verir ki, bu barədə Freedom House, yayımladığı "Freedom in the World 2021" illik hesabatında qeyd edib...

## Vazgen Manukyan: "Ordu Paşinyanın qərarına tabe olmayacaq"



Hadisələrin gələcək inkişafı "parlamentin qapılarının arxasındakı ordudan" asılıdır və əgər Ermənistanın baş naziri ...

Bax 12

## XİN: "Bu terrorçu-diversant qrupu heç bir vəchlə hərbi əsir hesab edilə bilməz"

Bax 7




Ermənistan tərəfinin və onun havadarlarının tamamilə əsassız iddiaları Xarici İşlər Nazirliyi tərəfindən cavablandırılıb və bir daha qeyd etmək istərdik ki, Azərbaycan Respublikası 10 noyabr 2020-ci il tarixli bəyanatın öhdəliklərinə sadiq qalır və bu öhdəliklərin tam şəkildə yerinə yetirilməsi istiqamətində müvafiq addımları atır.

### Donor vasitəsilə uşaq sahibi olmaq qadağan ediləcək



Bax 15

### Zatulinin cibxərcliyi həsrəti...



Bax 14

### Ronaldo 600-ə çatdı



Bax 16

# “Pakistanla hərbi sahədə əməkdaşlığımız dünyada sülhün bərqərar olunmasına töhfə verəcək”

## *Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib*



***“Müharibənin ilk günündən Pakistan Azərbaycana həmrəylik və dəstək nümayiş etdirdi. Pakistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının tərəfdarı kimi çıxış etdi və Ermənistanın təcavüzünü pislədi. Bu, həqiqi qardaşlıq və dostluğun nümunəsi idi”***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:

-Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Əminəm ki, sizin səfəriniz hərbi sahədə ölkələrimiz arasında əməkdaşlığı gücləndirəcək. Bu günə qədər bu əməkdaşlıq çox səmərəli olmuşdur və biz tərəfdaşlığımızı genişləndirmək arzusundayıq.

Əvvəlcə, müharibə zamanı nümayiş etdirilən həmrəyliyə və dəstəyə görə qardaş Pakistana təşəkkürümü ifadə etmək istəyirəm. Torpaqlarımızın azadlığı uğrunda apardığımız müharibə 44 gün çəkdi və Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatdı. Biz 30 ilə yaxın işğal altında olan ərazilərimizi azad etdik.

Müharibənin ilk günündən Pakistan Azərbaycana həmrəylik və dəstək nümayiş etdirdi. Pakistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının tərəfdarı kimi çıxış etdi və Ermənistanın təcavüzünü pislədi. Bu, həqiqi qardaşlıq və dostluğun nümunəsi idi. Yəqin bilirsiniz ki, Azərbaycanda insanlar Pakistan xalqı ilə, ölkənizlə bağlı öz hisslərini nümayiş etdirdilər, müharibə zamanı Pakistan bayraqlarını dalğalandırdılar. Bu, bir daha bizim birlik və qardaşlığımızı nümayiş etdirir.

Ölkələrimiz arasında əlaqələrin uzun tarixi var. Pakistan dünyanın Ermənistanla diplomatik münasibətlər qurmayan azsaylı dövlətlərindən biridir və Azərbaycanın torpaqlarının işğalı səbəbindən Ermənistanı rəsmi olaraq tanımayıb. Xalqımız bundan xəbərdardır və biz bunu çox yüksək qiymətləndiririk. Azərbaycan da öz növbəsində, hər zaman Kəşmir məsələsi daxil olmaqla, bütün digər məsələlərdə Pakistanı dəstəkləyir. Bu dəstək tərəfimizdən BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda verilir. Sabah İqtisadi Əməkdaşlıq Təşkilatının videokonfrans formatında Zirvə toplantısı keçiriləcək və biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığı müzakirə edəcəyik. İkitərəfli münasibətlərimizə bir daha toxunaraq qeyd etmək istəyirəm ki, biz diqqətimizi iqtisadiyyat sahəsində cəmləşdirəcəyik. Buraya energetika və nəqliyyat sahəsi aiddir. Biz ümid edirik ki, Pakistan ölkəmizin ərazisindən keçən mövcud və yeni yaranmaqda olan nəqliyyat marşrutlarına qoşulacaq. Beləliklə də biz əməkdaşlığımızı bu sahədə də genişləndirmiş olacağıq.

Əlbəttə, hərbi sahədə əməkdaşlığımızın böyük potensialı var və əminəm ki, bu gün siz həmkarlarınızla gələcək planlarımızı müzakirə edəcəksiniz. Biz artıq Pakistan müdafiə sənayesinin məhsulları ilə tanışıq. Bildiyiniz kimi, biz Pakistandan hərbi avadanlıq almışıq və bu prosesi davam etdirmək arzusundayıq. Bununla yanaşı, biz birgə hərbi təlimlər üzərində düşünürük. Hesab edirik ki, artıq bunun vaxtı çatıb.

Biz artıq Azərbaycan, Türkiyə və Pakistan arasında siyasi və digər sahələrdə, o cümlədən müdafiə sahəsində üçtərəfli əməkdaşlıq formatının yaxşı nəticələrinin şahidi olduq. Hesab edirəm ki, biz səylərimizi birləşdirərək mövqelərimizi gücləndirəcəyik və sülhə töhfə verəcəyik. Çünki ölkələrimiz regionda sülh və ədalətin tərəfdarıdır. Biz beynəlxalq hüququn işləmədiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin 27 il ərzində icra edilmədiyini, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana qarşı sanksiyaların tətbiq olunmadığını, Ermənistanın cəzalandırılmadığını və sonsuz danışıqların dalana dirəndiyini görəndə ədaləti özümüz bərpa etməli olduq. Yəni, beynəlxalq hüquq işləmədiyi halda, o, güc vasitəsilə həyata keçirilməlidir. Biz buna nail olduq və bunu bütün dünyaya nümayiş etdirdik.

Ancaq biz sülh istəyirik və bu gün sülhü təbliğ edirik. Beləliklə, bizim hərbi sahədə əməkdaşlığımız dünyada sülhün bərqərar olunması işinə töhfə verəcək. Bir daha xoş gəlmisiniz. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi və həmkarlarınızla səmərəli iş aparmağı arzulayıram.

XXX

Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Raza:

-Çox sağ olun cənab Prezident. Əvvəlcə, Sizinlə görüşməkdən böyük şərəf hissi duyuram və bu cür yerinə düşən görüş fürsətinə görə Sizə olduqca minnətdaram. Sizin və Azərbaycan xalqının 44 günlük müharibədə tam Qələbəsi münasibətilə Sizi öz adımdan, Pakistanın bütün Silahlı Qüvvələri və Pakistan xalqı adından təbrik etmək istərdim. Deməliyəm ki, Zəfəriniz eyni istəklə Pakistanda qeyd olundu. Buna görə, Zati-aliləri, cənab səfir hadisələrin gedişatı haqqında bizi daim məlumatlandırırdı. Müharibənin istənilən anında Azərbaycan Silahlı Qüvvələrinin əməliyyatları bizim kütləvi informasiya vasitələrində əsas başlıqla gedirdi. Bir daha tam Qələbəniz münasibətilə Sizi təbrik edirəm.

# Prezidentin keçirdiyi tarixi mətbuat konfransından Ermənistana növbəti xəbərdarlıq



### Prezident İlham Əliyev: "...Əks təqdirdə Ermənistan daha da ağır duruma düşəcək"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən fevralın 26-da yerli və xarici media nümayəndələri üçün 4 saatdan çox davam edən konfransda dünyanın 35-dən çox media orqanının 50-yə qədər suallarına dövlət başçımızın tam əsaslandırılmış hər bir cavabı bir tezis olaraq bütün dünyaya göstərdi ki, Azərbaycanın Ermənistan üzərində qələbəsi ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir. "Bu gün Ermənistan elə bir ağır durumdadır ki, orada gedən proseslər ölkənin dövlətçilik əsaslarını böyük dərəcədə sarsıdır. Bunun günahkarları Ermənistanın əvvəlki və indiki rəhbərləridir". Bu fikirləri Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında son günlər Ermənistanda baş verən hadisələrə münasibət bildirərkən səsləndirib.

Dövlətimizin başçısı deyib: "İyirmi il ərzində Koçaryan-Sarkisyan xuntası Ermənistanı faktiki olaraq uçuruma aparırdı və böhranlı vəziyyətə gətirib çıxardı. Ölkə demək olar ki, bütövlükdə müstəqillik əlamətlərini itirmişdi, daha çox müstəmləkəyə bənzəyirdi. Bunun əsas səbəbi işğalçılıq siyasətidir. Çünki onlar torpaqlarımızı nə qədər çox işğal altında saxlamaq istəyirdilərsə, o qədər də asılı vəziyyətə düşürdülər. Biz Ermənistanı ardıcıl olaraq bütün beynəlxalq, regional layihələrdən təcrid etmişdik. Ermənistanı iqtisadi cəhətdən sarsıtmaq, çökdürmək, təcrid etmək bizim siyasətimiz idi. Mən bunu heç vaxt gizlətmirdim və açıq şəkildə dəfələrlə deyirdim ki, biz bu siyasəti o vaxta qədər aparacağıq ki, Ermənistan öz silahlı qüvvələrini bizim torpaqlarımızdan çıxarsın. Ondan sonra bölgədə iş birliyi də, əməkdaşlıq da olar bilər və bizim siyasətimizdə dəyişiklik ola bilər. Əfsuslar olsun ki, nə əvvəlki xunta rejimi, nə də 2018-ci ildə hakimiyyətə gəlmiş hökumət bizim bu çağırışlara qulaq asmadı. Əgər vaxtında qulaq assaydılar, bu gün belə rəzil duruma düşməzdilər".

### "Bu reallıqla Ermənistan və eyni zamanda, bütün başqa ölkələr barışmalıdırlar, hesablaşmalıdırlar"

Prezident İlham Əliyev, həmçinin qeyd edib ki, Ermənistanda indi tam böhran vəziyyəti hökm sürür: "Mən onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdim. Prinsip etibari ilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq, xüsusilə indiki bir həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanmış Bəyanat icra edilir və tam icra edilməlidir. O bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilibdir. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanat icra ediləcəkdir. Əks təqdirdə Ermənistan daha da ağır duruma düşəcək. Yəni, Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar".

Azərbaycanın yeni reallıqlar yaratdığını bildirən Prezident İlham Əliyev vurğulayıb ki, bu reallıqla Ermənistan və eyni zamanda, bütün başqa ölkələr barışmalıdırlar, hesablaşmalıdırlar: "Ermənistanın qarşısında indi bir neçə seçim var və onların arasında Ermənistan üçün ən məqbul seçim 10 noyabr Bəyanatının müddəalarını icra etməkdir. Əks təqdirdə onlar üçün daha da böyük problemlər yarana bilər".

Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Ermənistandakı böhranın atəşkəsə və regional əməkdaşlığa təsirindən danışarkən bildirib ki, bu bizim planlarımıza təsir edə bilməz: "Ermənistandakı böhran və onun sülhə təsiri, yenə də bu böhranın hansı istiqamətdə cərəyan edəcəyindən asılı olacaqdır. Bu böhranın tezliklə bir sonu olmalıdır. Dediyim kimi, bu tragikomediyaya son qoyulmalıdır",-deyən Prezident İlham Əliyev bildirib ki, atəşkəs və üçtərəfli bəyanatın icrası ilə bağlı diqqətinizi Prezident Putinin cavabına yönəltmək istərdim: "Ona sual verildi ki, Ermənistan bu bəyanatın icrasından boyun qaçırmaq istəsə nə olacaq? O da dedi ki, bu, Ermənistan üçün sui-qəsd olacaqdır. Mən də bu məsələdə Prezident Putinlə tamamilə razıyam".

### "Status haradadır, onu hər kəs bilir"

Prezidenti İlham Əliyev yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında statusla bağlı verilən suala cavab olaraq deyib: "Öz çıxışlarımda statusun ünvanını göstərmişəm. Bir daha ora qayıtmaq istəmirəm. Status haradadır, onu hər kəs bilir".

Prezident status məsələsinin ümumiyyətlə gündəlikdən çıxarılmamasını dedi: "Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Çünki Ermənistan və erməni xalqına yanlış vədlər vermək lazım deyil. Onları bax bu günə salan səbəblərdən biri də məhz bu idi: xülya, iddia, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynayıblar. Ona görə də status məsələsi ümumiyyətlə gündəlikdən çıxarılmalıdır".

Prezident İlham Əliyev Ermənistan tərəfinin minalanmış sahələrin xəritələrini verməməklə cinayət əməllərini nümayiş etdirdiyini söyləyib: "Biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq. Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, əlbəttə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib".

Dövlət başçısı bildirib ki, mövcud olan resurslarla ərazilərin minalardan tezliklə təmizlənməsi mümkün deyil: "Yəni, əlbəttə, burada erməni tərəfin qeyri-səmimi davranmasını bir daha yəqin edirik. Onlar sözdə bir cür danışır, əməldə isə başqa cür hərəkət edirlər. Biz onların hərbi əsirlərini, həlak olanların cəsədlərini verdik. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə erməni tərəfin nümayəndələri, sülhməramlı missiya və bizim nümayəndələr birlikdə mindən çox həlak olmuş erməni hərbi qulluqçusunun cəsədlərini tapdılar və erməni tərəfə verdilər".

Prezident qeyd edib ki, biz özümüzü əxlaq normalarına və ümumbəşəri davranış normalarına müvafiq şəkildə aparırıq: "Lakin minalanmış sahələrin xəritələrini bizə verməmək dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək deməkdir. Hansı əməkdaşlıqdan söhbət gedə bilər? Belə olan təqdirdə birtərəfli əməkdaşlıq ola bilməz".

Ardı Səh. 4

# Prezidentin keçirdiyi tarixi mətbuat konfransından Ermənistana növbəti xəbərdarlıq

Əvvəli-Səh-3

### "Hər hansı revanşizm cəhdləri Azərbaycan tərəfindən cəzalandırılacaq"

Prezident İlham Əliyev erməni əhalisinə qarşı heç bir zərərli addımlar atılmadığın deyərək bildirdi ki, hər hansı revanşizm cəhdləri olarsa mütləq Azərbaycan tərəfindən cəzalandırılacaq: "Hər hansı revanşizm cəhdləri Azərbaycan tərəfindən cəzalandırılacaq. Ona görə də xəbərdarlıq edirəm ki, revanşizm və qisas cəhdləri olmamalıdır".

Dövlət başçısı qeyd edib ki, 10 noyabr bəyanatı tamamilə icra olunmalıdır: "Hazırda Şərqi Zəngəzur istiqamətində Azərbaycanın Ordusu yoxdur. Orada Dövlət Sərhəd Xidməti var. Erməni mülki əhalisi ilə sərhədçilər arasında gərginlik yoxdur. Dinc həyat hökm sürür. Bəzi kəndlər bizim ərazimizə düşür. Orada Ermənistan silahlı qüvvələri yoxdur. Biz öz sərhədimizdə dayanmışıq, erməni əhalisinə qarşı heç bir zərərli addımlar atmırıq. Erməni şəhərlərini birləşdirən 20 km yol Azərbaycan ərazisindən keçir. Orada böyük plakat da asmışıq. Yazılıb ki, "Azərbaycana xoş gəlmisiniz". Bu, Ermənistanda qıcıq doğurur. Bunu tam anlaya bilmirəm. Ona görə də dayanıqlı sülh üçün bundan daha artıq nailiyyətə əl atmalı deyilik".

### "Bizdə olan hərbi əsirlərin hamısını qaytarmışıq"

"Müharibədən 20 gün sonra hərbi əsir ola bilməz. Bizdə olan bütün əsirləri qaytarmışıq",-deyən dövlət başçısı bildirib ki, vəziyyət tamamilə nəzarətimiz altındadır: "Özü də biz əsirləri onların bizə qaytardığından qabaq vermişik. Bu adamlar isə bu kateqoriyaya daxil deyillər, onlar diversant və terrorçudurlar. Beləliklə, Ermənistan və digər ölkələr tərəfindən edilən istənilən spekulyasiyalar yersizdir".

Dövlət başçısı digər diversiya qruplarının bölgəyə sızmayacağının təminatı olmadığını bildirib: "Ancaq biz işğaldan azad edilmiş ərazilərin təhlükəsizliyini yetərincə təmin edirik, müntəzəm reydlər, PUA-lar vasitəsilə, həmçinin vizual monitorinq keçiririk. Yəni vəziyyət tamamilə nəzarətimiz altındadır".

### "Baxın, bu əxlaqsızlığın dərəcəsi varmı, ya yox?!"

"Ermənilər yaşlı qadını qəbul edib yaşlı kişini xəstə olduğu üçün qəbul etmədilər. Dedilər ki, bu artıq xəstədir və bizim ona baxmağa imkanımız yoxdur. Hətta dedilər ki, onun heç bir qohumu yoxdur. Əgər biz onu qəbul etsək ona kim baxacaq?! Baxın, bu əxlaqsızlığın dərəcəsi varmı ya yox?!",-deyən Prezident İlham Əliyev onların nə qədər əxlaqsız olduğunun göstərdiyini söyləyib: "Nə qədər səy göstərsək də, Beynəlxalq Qırmızı Xaç Komitəsi də bunun şahididir. Onların iştirakı ilə bunu edirdik. Onlar yaşlı kişidən imtina etdilər və bizdə qaldı. Beynəlxalq Qırmızı Xaç Komitəsinin köməyi ilə onu xəstəxanaya yerləşdirdik və bütün səylərə baxmayaraq bir müddətdən sonra o kişi rəhmətə getdi. Biz bunu da edirdik, amma onların cavabı nə oldu".

### "O vaxtkı Azərbaycan indiki Ermənistanı xatırladır"

Prezident İlham Əliyev keçirdiyi mətbuat konfransında qeyd edib ki, Xocalı soyqırımı törədiləndə dünya susmuşdu: "Bunun səbəbi o idi ki, o vaxt məlumat qıtlığı var idi. Ermənistan öz propaqandasını işə salmışdı, Azərbaycan tərəfi isə tamamilə aciz durumda idi. Çünki o vaxt bizim dövlətçilik əsaslarımız yox idi, o vaxt Azərbaycan idarəolunmaz vəziyyətdə idi. O vaxtkı Azərbaycan indiki Ermənistanı xatırladır. Bacarıqsız yönətim, böhranlı vəziyyət, orduda nizam-intizamın olmaması... Ordu faktiki olaraq hakimiyyətin tabeliyindən çıxmışdı. Eyni mənzərəni biz bu gün Ermənistanda görürük. Bizim o vaxt imkanlarımız məhdud idi.

Digər səbəb, dünya bunu görmək istəmirdi. Çünki Birinci Qarabağ Müharibəsi başlayanda əksər ölkələrdə belə bir təsəvvür vardı ki, Ermənistan haqlıdır, Azərbaycan haqsızdır. Uzun illər ərzində bizə qarşı ədalətsizlik davam edirdi. Bizə uzun illər lazım oldu ki, dünyanın fikrini dəyişdirə bilək, həqiqətləri təqdim edə bilək!".

### "Sadəcə olaraq, o vaxt hakimiyyətdə olanlar buna qarşı heç bir addım ata bilmədilər"

Dövlət başçısı o vaxt Azərbaycan torpağında ikinci Ermənistan dövlətin yaradılması ilə bağlı məsələyə o vaxt cavab verilmədi: "Nə üçün tarixi Azərbaycan torpağında ikinci Ermənistan dövləti yaradılmalıdır. Heç kim buna cavab verə bilmədi. Ona görə bu stereotiplər uzun illər davam etdi. Uzun illər ərzində bizə qarşı ədalətsizlik təbliq olunurdu. Baxın, Sovetlər Birliyi dağılandan sonra Amerika Konqresi azadlığa dəstək aktı qəbul etmişdi. Bu qanun bütün keçmiş müttəfiq respublikalara yardım məqsədilə qəbul edilmişdi. Azərbaycanı oradan çıxardılar. Kim çıxardı? Erməni lobbisinin nümayəndələri. Onların bir çoxu indi də yüksək vəzifələrdədir. Səbəb o idi ki, guya Azərbaycan Ermənistanı blokadaya alıb. Necə almışıq ki, bizim torpaqlarımız işğal altına düşüb?! Ancaq bizə qarşı sanksiyalar tətbiq olundu. Bu günə qədər o sanksiya hələ də qüvvədədir. Onun nömrəsi də var - 907-ci düzəliş. Azadlığa dəstək aktının 907-ci düzəlişi bizə sanksiyalar tətbiq edir. Bu qədər ədalətsizlik ola bilərmi? Sadəcə olaraq, o vaxt hakimiyyətdə olanlar buna qarşı heç bir addım ata bilmədilər".

### "Biz isə haqlı olduğumuzu döyüşərək sübut etməyə çalışırdıq və buna nail olduq"

"Uzun illər lazım oldu ki, biz dünyanın fikrini dəyişdirə bilək, həqiqətləri təqdim edə bilək. Açıqaydın olan həqiqətləri təsdiq etmək üçün, onları sübut etmək üçün görün biz nə qədər səy göstərdik",-deyən dövlət başçısı bildirdi ki, stereotip isə belə idi ki, Ermənistan daim haqlıdır: "Nə etsə də yenə də onlara haqq qazandırırdılar. Baxın, son bir-iki il ərzində Ermənistanda nə qədər müxalifət lideri həbs edildi. Nə qədər insan öz hüquqlarından məhrum edildi. Hətta siyasi qətllər də baş verdi. Hansısa bir beynəlxalq təşkilat onları qınadımı? Yox. Onlara hər şey etmək mümkündür. Biz isə haqlı olduğumuzu döyüşərək sübut etməyə çalışırdıq və buna nail olduq. Sizin bu gün Azərbaycanda olmağınız, bizim sözümüzü dünyaya çatdırmağınız, əlbəttə ki, haqqədalətin bərqərar olmasına böyük töhfə verir".

### "Rusiya və Azərbaycan dost ölkələrdir"

"İşğaldan azad edilən ərazilərin bərpa işində Rusiya şirkətlərinin iştirakı barədə mən artıq bəyanat vermişəm",-deyən dövlət başçısı bildirib ki, biz dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik: "Rusiya və Azərbaycan dost ölkələrdir. Buna görə təbii ki, Rusiya şirkətləri cəlb ediləcək. Fikrimcə, artıq onlar özləri maraq göstərə bilərlər. Ona görə ki, biz müəyyən iş növləri barədə müxtəlif ölkələrdən sifarişlər alırıq. Bu, şəhərlərin planlaşdırılmasına, obyektlərin, o cümlədən infrastruktur obyektlərinin, yolların, körpülərin, elektrik stansiyalarının tikintisi ilə bağlıdır. Yəni, işin həcmi çox böyükdür. 10 min kvadratkilometrdən çox ərazi azad edilib. Buna görə düşünürəm ki, Azərbaycanın bütün dostları üçün kifayət qədər iş var". "O ki qaldı Ermənistan baş nazirinin "İsgəndər" raket kompleksi ilə bağlı bəyanatlarına, o, bizdə də suallar doğurub. Mən bunu ironiyalaşdırmaq istəməzdim. Bu məsələyə istər Rusiyanın rəsmi şəxsləri, istər parlament üzvləri, istərsə də ekspertlər tərəfindən kifayət qədər şərh verilib ki, raketin 10% partlaması üçün gərək xeyli çalışasan". Bunu Azərbaycan Prezidenti İlham Əliyev yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında deyib. "Biz "İsgəndər" raketinin atılmasını görməmişik. Ona görə bu bəyanat səsləndirilən ötən gün biz yenə də maraqlandıq, ancaq yox, biz bunu görməmişik. Bu sadəcə publik şəkildə deyilmiş boş söz idi",-Prezident qeyd edib.

### "Sarqsyan bizə Rusiyadakı görüşdə vəd vermişdi ki..."

"Sarqsyan bizə Rusiyadakı görüşdə vəd vermişdi ki, işğalda olan əraziləri bizə qaytaracaq. O, bunun üçün iki həftə istəmişdi. Sonra vəziyyətin pisləşməsini əsas gətirərək məsələni uzatdı",-deyən Prezident İlham Əliyev bildirib ki, bizim gələcəklə bağlı dəqiq mövqeyimiz var: "Bu gün biz istənilən inteqrasiya hadisəsinə hazırıq. Müharibədən qabaq nəzarət edilən ərazilərdə, təxminən, 60 min adam yaşayırdı. Biz bu rəqəmləri havadan götürməmişdik. Peyk nəzarəti ilə əldə etdiyimiz rəqəmlər idi. Biz müharibədən əvvəl də bilirdik ki, orada nələr baş verir. Rus tərəfi ilə razılığa gəlmişik ki, xaricilər bizim razılığımızla ora keçə bilərlər. Lakin bəzən pozulma halları baş verir. Hər şey nəzarət altındadır və belə də davam edəcək".

Bəli, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Faktiki olaraq biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik...Hər hansı revanşizm cəhdləri Azərbaycan tərəfindən cəzalandırılacaq. Ona görə də xəbərdarlıq edirəm ki, revanşizm və qisas cəhdləri olmamalıdır".

Göründüyü kimi, artıq bütün dünya Azərbaycanın güclü Liderinin apardığı uğurlu və diplomatik siyasətini, Güclü Ordusunun gücünü 30 il işğal altında olan torpaqlarımızın 44 gündə Qələbə qazandığının şahidi oldu. Və bir daha şahid oldu ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu tarixi mətbuat konfransındakı mesajları ilə informasiya sahəsində də Qalib oduğunu aydın şəkildə göstərməklə Ermənistana növbəti dərs verdi - "DÜZ YOLA GƏL!".

**RƏFİQƏ HÜSEYNOVA**

## XIN: Bəzi ölkələrin parlamentarları öz qərəzli mövqelərini sülhdən də üstün tutur



Hərbi əməliyyatların dayandırılmasına dair razılığın əldə olunması ilə bölgədə yaranmış yeni vəziyyətdə, dayanıqlı sülhün əsas təminatçısı qismində çıxış edən üçtərəfli bəyanatların həyata keçirilməsi olduqca vacibdir və bölgəmizdə sülhü arzulayan hər hansı tərəf məhz bu razılaşmaların icrasına istər bəyanatları, istərsə də fəaliyyəti ilə töhfə verməlidir. SİA-nın məlumatına görə, bunu Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bəzi Avropa ölkələrinin parlamentlərinin qəbul etdiyi sənədlərlə bağlı sualı cavablandırarkən deyib.

Onun sözlərinə görə, Vətən müharibəsindən sonra bölgədə yaranan yeni vəziyyət və 10 noyabr tarixli üçtərəfli bəyanatın icrası sadəcə bölgə ölkələrinin deyil, beynəlxalq ictimaiyyətin diqqət mərkəzində saxladığı məsələlərdəndir:

"Azərbaycan tərəfi hər zaman bəyan edib və bir daha vurğulayırıq ki, bölgədə dayanıqlı sülh və təhlükəsizliyin, inkişafın təmin olunması üçün imzalanmış üçtərəfli bəyanatların yerinə yetirilməsi vacib şərtdir. Doğru qeyd edirdiniz, son günlərdə bəzi Avropa ölkələrinin qanunverici qurumları bölgədəki vəziyyət və razılaşmaların icrası ilə bağlı sənədlərlə çıxış edirlər. Bu ilin 2 mart tarixində İtaliya Parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasında "Ermənistan və Azərbaycan arasında razılaşmanın yerinə yetirilməsi vəziyyəti haqqında" qətnamə qəbul olunub. Qətnamədə hər iki tərəfə müraciət edilərək, tərəflər konstruktiv fəaliyyətə dəvət olunurlar. Balanslaşdırılmış mövqe nümayiş etdirən İtaliya Parlamenti İtaliya hökumətinə Ermənistan və Azərbaycan arasında gələcək barışıq şəraitinin yaranması üçün etimad quruculuq tədbirlərini təşviq etmək istiqamətində hər iki dövlətlə ikitərəfli səviyyədə iş aparmağı tapşırıb. Burada ən önəmli məsələ kimi, Parlamentin ərazilərin minalardan təmizlənməsi məsələsinə diqqət ayırdığını və bu xüsusda minalanmış ərazilərin xəritələrinin verilməsini qeyd etdiyini vurğulamaq istərdim. Ümumiyyətlə, bildiyiniz kimi, artıq ikinci dəfədir ki, İtaliya Parlamenti üçtərəfli bəyanatın icrası ilə bağlı məsələyə diqqət ayırır. Bir müddət öncə 18 noyabr 2020-ci il tarixində qəbul olunmuş qətnamədə də sözügedən birgə bəyanatın imzalanması alqışlanmış və tərəflər, bu bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməyə dəvət olunmuşdular".

L.Abdullayeva qeyd edib ki, bununla yanaşı, bu ilin 25 fevral tarixində Niderland Parlamentinin Xarici əlaqələr komitəsi tərəfindən "Azərbaycan tərəfindən həbs edilmiş hərbi əsirlərin azad edilməsi ilə bağlı" Niderland hökumətinə çağırış edən qətnamə qəbul olunmuşdu:

"Niderland Parlamentinin növbəti əsassız və tamamilə birtərəfli xarakter daşıyan bu sənədi Komitənin hər zaman qərəzli mövqeyi ilə tanınan üzvlərinin canfəşanlığı nəticəsində qəbul olunub. Qeyd etmək istərdim ki, qətnamənin müzakirəsi zamanı iclasda çıxış edən Niderland xarici işlər naziri Stef Blok qətnamənin əleyhinə çıxış etmiş, həm Ermənistan, həm də Azərbaycanın hərbi əsirlərlə bağlı qarşılıqlı iddialarının olduğunu söyləmiş və qətnamədə hər iki tərəfə çağırışın edilməsi düzəlişini təklif etmişdir. Buna rəğmən qətnaməyə düzəliş edilməmişdir. Bu, bir daha bəzi ölkələrin parlamentarlarının öz qərəzli mövqelərini hər şeydən, hətta bölgədə sülhün təmin olunması səylərindən üstün tutduqlarını göstərir".

# Misirin informasiya agentliyində Prezident İlham Əliyevin mətbuat konfransı haqqında analitik məqalə yayılıb



Misirin "Asiaelyoum" informasiya agentliyinin baş redaktoru Əbubəkir Əbu Əl-Məcd Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı haqqında analitik məqalə ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, "Prezident İlham Əliyevin mətbuat konfransına dair siyasi-strateji fikirlər" sərlövhəli məqalədə dövlətimizin başçısının bir çox mətləblərə aydınlıq gətirdiyi, Ermənistan rəhbərliyinə, habelə Qafqazda təhlükəsizlik məsələləri ilə bağlı narahatlıq keçirən ölkələrə mesajlar göndərdiyi qeyd olunur. Müəllif vurğulayır ki, jurnalistlərin suallarını dörd dildə səlis cavablandıran İlham Əliyev dəqiqliklə işlənilmiş və həyata keçirilmiş strateji planlarını da açıqlayıb. Məhz uzun illər təmkinlə reallaşdırılan bu planlar nəticəsində Azərbaycan Ordusu qısa müddətdə torpaqları işğaldan azad edə bilib.

Analitik məqalədə Prezident İlham Əliyevin 10 noyabr Bəyanatının şərtlərinin yerinə yetirilməsi, Türkiyə və Rusiyanın müşahidə missiyasının fəaliyyəti, uzun illər pulsuz silahla təchiz edilən Ermənistan silahlı qüvvələrinə qarşı preventiv tədbirlərin həyata keçirilməsi haqqında fikirləri yer alıb. Müəllif vurğulayıb ki, Azərbaycanın inamlı Qələbəsinə aparan yolun təməli ötən əsrin 90-cı illərinin əvvəlində ölkəni məhv olmaqdan xilas edən dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulub. Sovet İttifaqının rəhbərlərindən biri olmuş bu müdrik siyasətçi həm postsovet məkanında vəziyyəti, həm də regionda geostrateji şəraiti hər kəsdən yaxşı bilir, Rusiya və MDB ölkələri ilə yanaşı, Qərblə də yüksək səviyyədə əməkdaşlıq siyasəti yürüdürdü. Onun neft strategiyası, Azərbaycanın iqtisadi qüdrətinin artırılması istiqamətində həyata keçirdiyi tədbirlər sayəsində yaradılan ordu öz gücünü göstərdi. Qırx üç yaşında dünyanın ən gənc prezidentlərindən biri olan İlham Əliyev isə atasının uzaqgörən siyasətini davam etdirərək adını tarixə Müzəffər Ali Baş Komandan kimi yazdırdı.

Məqalədə Azərbaycanın son 17 ildə keçdiyi inkişaf yolundan, həyata keçirilən transmilli neft-qaz və nəqliyyat layihələrindən ətraflı bəhs edilib. Müəllif, həmçinin Prezident İlham Əliyevin mətbuat konfransında ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların səmərəsizliyi, atəşkəs dövründə işğalçı Ermənistanın hərbi təxribatlarını davam etdirməsi, 44 günlük müharibədə, xüsusən Şuşanın azad edilməsi uğrunda döyüşlərdə Azərbaycan əsgərinin şücaəti barədə fikirləri də yer alıb.

Sonda Azərbaycan Prezidentinin işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa-quruculuq işləri, Ermənistanda son vəziyyət haqqında mülahizələri geniş təhlil edilib.

# Ceyhun Bayramov italiyalı həmkarı ilə Ermənistanın pozucu əməllərini müzakirə edib

***Martın 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq Naziri Luici Di Maio ilə telefon danışığı baş tutub. Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.***




Nazir Ceyhun Bayramov hazırda bölgədə mövcud olan vəziyyət, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların həyata keçirilməsi ilə bağlı məsələlər, o cümlədən ölkəmiz tərəfindən bu istiqamətdə görülən işlər və Ermənistanın bəyanatdan irəli gələn öhdəliklərinə qarşı olan pozucu əməlləri barədə italiyalı həmkarına məlumat verib.

Nazir Luici Di Maio bölgədə dövlətlərarası vəziyyətin normallaşması üçün üçtərəfli bəyanatların bütün aspektlərinin həyata keçirilməsinin vacibliyini vurğulayıb. Nazirlər, həmçinin ölkələr arasında mövcud olan münasibətlərin hərtərəfli inkişafı perspektivləri, regiondakı yeni əməkdaşlıq imkanları, enerji və humanitar sahələrdə əməkdaşlığın genişlənməsi imkanlarını müzakirə ediblər. Tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib




İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti - 4-cü iclası keçirilib. SİA xəbər verir ki, iclası açan Qərargahın rəhbəri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Qərargahın fəaliyyətini dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinin aparılması üzrə müəyyənləşdirdiyi strateji istiqamətlərə və tapşırıqlara uyğun olaraq həyata keçirdiyini qeyd edib. Qərargahın rəhbəri bildirib ki, ötən həftə yerli və xarici media nümayəndələri üçün keçirilmiş mətbuat konfransı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin ölkəmiz üçün taleyüklü məsələ olduğunu xüsusi olaraq vurğulayıb.

İclasda işğaldan azad edilmiş ərazilərdə həlledici əhəmiyyət kəsb edən minalardan təmizləmə, ölkə vətəndaşlarının qayıdışı, enerji təminatı və xüsusilə də "Yaşıl enerji" məsələləri, şəhərsalma və nəqliyyat infrastrukturunun inkişafı üçün qısa və uzunmüddətli planlar, "Ağıllı kənd" konsepsiyasının tətbiqi üzrə məruzələr dinlənilib və müvafiq təlimatlar verilib. İclasda dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq işlərin planlı və ardıcıl surətdə aparılmasının vacibliyi vurğulanıb.

# Mövlud Çavuşoğlu: "Azərbaycanın təklif etdiyi platformanın məqsədi regionda sülhü dayanıqlı etməkdir"



"Gürcüstan regional platformalardan kənarda qalmamalıdır". Bunu Gürcüstanın xarici işlər naziri David Zalkaliani türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransında deyib. "Biz anlayırıq ki, bölgədə sabitliyin qorunması Türkiyə üçün çox önəmlidir. Amma bu platformalarda yer alan ölkələr mütləq digər ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmət etməlidir. Amma bunu da qeyd etməliyəm ki, Gürcüstan bu platformalardan kənarda qalmamalıdır" - deyə D. Zalkaliani bildirib.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu isə deyib ki, Azərbaycanın təklif etdiyi "3+3" platformasının məqsədi regionda sülhü dayanıqlı etməkdir. Nazirin sözlərinə görə, "3+3" platformasının məqsədi logistik, iqtisadi, enerji sahələrindəki layihələrlə bağlı etibarlı addımlar atmaqdır. "Biz bu məsələdə Gürcüstanın mövqeyinə hörmətlə yanaşırıq" - deyə M. Çavuşoğlu vurğulayıb.



## Paşinyan parlamentdə tribunaya çıxmaqdan imtina edib

Yerevanda Ermənistanın baş naziri Nikol Paşinyanın istefası tələbi ilə növbəti etiraz aksiyası başlayıb. "İki sahil" xəbər verir ki, etirazçılar parlament binasının önünə toplaşıb. Qeyd olunur ki, polis əməkdaşları ətraf yolları bağlayıb. Parlament binasına snayperlər yerləşdirilib, yerdə xüsusi səs qumbaraları düzülüb. Eyni zamanda, parlamentdə hökumət üzvlərinin iştirtakı ilə iclas başlayıb. N.Paşinyan iclasda iştirak etsə də, sualları cavablandırmaq üçün tribunaya çıxmaqdan imtina edib.

# Azərabycan-Türkiyə: "Bir ürək, bir bilək, bir yumruq"



***Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun 44 günlük Vətən müharibəsindəki tarixi Zəfəri bütün dünyaya Azərbaycanın gücünü, qüdrətini bir daha nümayiş etdirdi. Vətən müharibəsi qəhrəman əsgər və zabitlərimizin yüksək qələbə əzmini, vətənpərvərliyini, xalqımızın milli birliyini, Azərbaycanın heç vaxt işğalla barışmadığını, nəyin bahasına olursa-olsun ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu bir daha təsdiq etdi. Qəhrəman ordumuz öz gücü ilə tarixi ədaləti bərpa etməyə, cəzasızlıqdan quduran işğalçı, Azərbaycanın sülh çağırışlarını saymazyana şəkildə rədd edən terrorçu Ermənistanı diz çökdürməyə qadir olduğunu bütün dünyaya sübut etdi. Hamıya aydın oldu ki, Azərbaycan xalqının yenilməz iradəsi qarşısında heç bir qüvvə tab gətirə bilməz.***

Azərbaycan xalqı bu çətin günlərdə kimin kim olduğunu gördü, dostunu, düşmənini bir daha tanıdı. 44 gündə başda qardaş Türkiyə olmaqla bir sıra ölkələrin dostluq mövqeyini gördük, güclü dəstəyini hiss etdik.

Prezident İlham Əliyev 2020-ci il sentyabrın 19-da "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində bildirmişdi ki, bizim Türkiyə ilə sıx əlaqələrimiz, birliyimiz böyük sərvətimizdir: "Ulu öndər Heydər Əliyev demişkən, "Bir millət, iki dövlət" prinsipi əsasında. Bütün məsələlərdə bir yerdəyik, hər bir məsələdə bir-birimizin yanındayıq. Tovuz hadisələri bir daha göstərdi ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, növbəti Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının təzahürü idi".

2020-ci ilin iyul ayında təcavüzkar ölkənin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətindəki təxribatları zamanı Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla 83 milyonluq türk xalqı tərəfindən böyük etirazla qarşılandı və nifrətlə qınandı. Qardaş Türkiyə bu təxribatların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu, Xocalı soyqırımından, Dağlıq Qarabağın işğalından başlayan Ermənistanın cinayətkar hərəkətlərinin davamı kimi qiymətləndirdi.

Tovuz hadisələrindən sonra Türkiyə liderinin birmənalı, açıq və kəskin açıqlamaları, "Azərabycana qarşı hər hansı təcavüz, Türkiyəyə qarşı təcavüzdür" bəyanatı Azərbaycan dövləti tərəfindən böyük rəğbət və razılıq hissi ilə qarşılandı. Həmin dövrdə bir neçə gün ərzində Naxçıvan Muxtar Respublikasında və Azərbaycanın bir sıra digər ərazilərindəki geniş coğrafiyada iki qardaş ölkənin quru və hərbi-hava qüvvələrinin birgə taktiki hərbi təlimlər keçirməsi Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürü oldu. Təkcə 2019-cu ildə həm Bakıda, həm də Türkiyədə 10-dan çox birgə hərbi təlim keçirildi.

İki dost ölkənin hərbçilərinin birgə təlimləri, eyni zamanda, ordumuzun NATO standartlarına tam cavab verdiyinin sübutu idi. Dünyanın ən güclü hərbi-siyasi birliyi olan NATO-nun ən güclü ordularından sayılan Türkiyə ordusu ilə birgə təlimlər, Azərbaycan Silahlı Qüvvələrinin həm həm peşəkarlıq baxımından mövcud vəziyyətini, həm də dünya orduları sırasında ən qabaqcıl yerlərdə qərarlaşdığının parlaq nümayişi idi.

Bütün bunlar, Azərbaycan və Türkiyənin siyasi-hərbi rəhbərliyinin qarşılıqlı intensiv səfərləri Ermənistanda qorxu və vahimə yaratmaqla yanaşı, onun havadarlarına da siyasi baxımdan mesaj idi. Təcavüzkar ölkə və onun noxtasını əllərində saxlayan dairələr, Ermənistan vasitəsi ilə Cənubi Qafqazda öz çirkin niyyətlərini həyata keçirmək istəyən qüvvələr bir daha gördülər ki, Türkiyə hər zaman olduğu kimi, Azərbaycanın yanındadır və onun maraqlarını sonadək müdafiə edəcək.

Hazırda Türkiyə Silahlı Qüvvələri ilə Azərbaycan Müdafiə Nazirliyi arasında uzun tarixə malik olan əməkdaşlıq ən yüksək səviyyədədir. 2021-ci il fevralın 1-dən 12-dək Qars vilayətində Türkiyə və Azərbaycan Silahlı Qüvvələrinin "Qış-2021" birgə hərbi təlimlərinin keçirilməsi də bunun əyani sübutudur. Birgə təlimlərin keçirildiyi Qarsda Türkiyə Ordusunun qalib Azərbaycan əsgərini böyük sevinc hissi ilə qarşılaması hamımızın köksünü qabartdı: "Qarabağda Ermənistan ordusuna qarşı böyük bir qələbə qazanan qardaşlarımıza böyük qürurla "xoş gəldiniz" deyirik. "Bir millət, iki dövlət" anlayışımızla "bir ürək, bir bilək, bir yumruq" kimi fəaliyyətlərimizə davam edəcəyik".

Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında qardaş ölkənin "Yeni Şəfəq" qəzetinin müxbirinin sualını cavablandırarkən bildirib ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə, dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. 44 günlük Vətən müharibəsində qardaş ölkə bir daha bəyan etdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır: "Bu, bir çoxları üçün mesaj oldu ki, kənarda durun, müdaxilə etməyin, Azərbaycana mane olmayın. Türkiyənin müdafiə naziri hörmətli Hulusi Akar, xarici işlər naziri hörmətli Mövlud Çavuşoğlu, digər yüksək vəzifəli rəsmilər birmənalı olaraq Azərbaycana dəstək verdilər. Bu, bizə çox böyük siyasi və mənəvi dəstək oldu. Eyni zamanda, bütün dünyaya bir siqnal oldu ki, kənarda durun, müdaxilə etməyin".

44 günlük Vətən müharibəsinin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, həmçinin bildirib ki, Türkiyə və Azərbaycan arasında bundan sonra da müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıq davam etdiriləcək. Dövlətimizin başçısı Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış Bəyanata əsasən Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin yaradılması ilə Türk Silahlı Qüvvələrinin Qarabağ bölgəsinə, Azərbaycan torpağına gəlməsini tarixi hadisə adlandırıb: "Bu, bizi çox məmnun edir. Mən müharibə dövründə demişdim və bu, hər kəsə bəllidir ki, Türkiyə Ordusu dünya miqyasında ən güclü ordular sırasındadır, NATO-da güc baxımından ikinci ordudur. Biz də Azərbaycanda Türk Ordusunun kiçik modelini yaratmaq əzmindəyik. Artıq bu sahədə əməli-praktiki işlərə start verilib. Türkiyə ilə Azərbaycan arasında çox geniş qanunvericilik bazası var. Bir çox sənədlər, müqavilələr imzalanıb. Onların arasında elə sənədlər var ki, orada qarşılıqlı hərbi yardım məsələləri də təsbit edilib".

***Zahid Rza***

# XİN: "Bu terrorçu-diversant qrupu heç bir vəchlə hərbi əsir hesab edilə bilməz"




Ermənistan tərəfinin və onun havadarlarının tamamilə əsassız iddiaları Xarici İşlər Nazirliyi tərəfindən cavablandırılıb və bir daha qeyd etmək istərdik ki, Azərbaycan Respublikası 10 noyabr 2020-ci il tarixli bəyanatın öhdəliklərinə sadiq qalır və bu öhdəliklərin tam şəkildə yerinə yetirilməsi istiqamətində müvafiq addımları atır. Bu məsələ ilə bağlı ən ali səviyyədə dəfələrlə münasibət bildirilmişdir. Qeyd etmək istərdim ki, hərbi əsirlərin mübadiləsi məsələsində Azərbaycan tərəfi xüsusi həssaslıq göstərərək Vətən müharibəsi zamanı əsir düşmüş 43-ü hərbçi və 28-i mülki şəxs olmaqla, ümumilikdə 71 erməni vətəndaşını 10 noyabr tarixli üçtərəfli bəyannamənin 8-ci bəndinin şərtlərinə uyğun şəkildə qarşı tərəfə qaytarmışdır. Bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva müsahibəsində deyib.

Leyla Abdullayeva deyib ki, Ermənistan tərəfinin süni şəkildə qaldırdığı "62 nəfər" məsələsinə gəldikdə isə, məlum olduğu kimi, üçtərəfli bəyanatın imzalanmasında sonra Ermənistan tərəfindən Azərbaycan ərazilərinə göndərilən və Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilmiş anti-terror əməliyyatı nəticəsində ələ keçirilmiş bu terrorçu-diversant qrupu heç bir vəchlə hərbi əsir hesab edilə bilməz. Belə ki, tutulmuş həmin qrup tərəfindən törədilmiş terror aktları nəticəsində Azərbaycanın 4 hərbi qulluqçusu şəhid olmuş, 1 mülki şəxs isə ağır yaralanmışdır. Hazırda sözügedən məsələ Azərbaycan Respublikasının müvafiq qurumları tərəfindən araşdırılır. Bildiyiniz kimi, məsələ ilə bağlı xarici işlər naziri Ceyhun Bayramov tərəfindən BMT Baş katibi Antonio Quterreşə ünvanlanan və BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi yayılan məktubda bu xüsusda təfərrüatlı məlumat təqdim edilmişdir.

Əlavə olaraq bildirmək istərdik ki, Azərbaycan tərəfi bəyannamənin şərtlərinə sadiq qalaraq işğaldan azad edilmiş ərazilərdə erməni hərbi qulluqçularının meyitlərinin tapılması və toplanması istiqamətində lazımi şərait yaradır, Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) və Rusiya sülhməramlıları ilə birgə Ermənistan tərəfinə köməklik göstərir. Bu günədək Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində tapılan 1274 cəsəd qarşı tərəfə təhvil verilmişdir.

Bütün bu məsələlərin fonunda hərbi əsirlərin mübadiləsi məsələsinin qabardılması, lakin beynəlxalq humanitar hüquqda adət normalarını pozaraq Ermənistanın işğaldan azad olunmuş ərazilərimizdə yerləşdirdiyi minalara dair xəritəni təqdim etməkdən imtina etməsinin isə beynəlxalq səviyyədə müzakirə olunmaması, məsələ ilə bağlı ikili standartların mövcudluğundan xəbər verir. Hərbi əməliyyatların bitməsindən bu günədək işğaldan azad olunmuş ərazilərdə 12-si mülki şəxs və 6-sı hərbi qulluqçu olmaqla, ümumilikdə 18 nəfər minaya düşərək olmuş, eyni zamanda 62 hərbi qulluqçumuz və 9 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Qeyd olunan faktlar Azərbaycan tərəfinin 10 noyabr tarixli bəyannamədən irəli gələn öhdəliklərə sadiq qaldığının və bölgədə sülhün təmin edilməsində, Ermənistanın isə əksinə, bəyannamə öhdəliklərini pozaraq hər vəchlə bölgədə gərginliyin artırılmasında maraqlı olduğunu açıq şəkildə göstərir.

# Rusiyanın turizm agentliyi: Azərbaycanda turistə lazım olan hər şey var

**Rusiyanın "100 doroq" turizm agentliyi müştərilərini Azərbaycanla tanış edib. Turizm agentliyi Altay diyarının inzibati mərkəzi olan Barnaul şəhərində yerləşir.**




AZƏRTAC xəbər verir ki, agentliyin saytında tanışlıq məqsədilə təqdim olunan materialda son illərdə Barnaul sakinlərinin turizmin fəal inkişaf etdiyi qonşu MDB dövlətlərinə getdikcə daha çox diqqət ayırdıqları qeyd edilir. Azərbaycan da istisna deyil. Burada turistə lazım olan hər şey var: dəniz və çimərliklər, dağlar və xizək kurortları, müalicəvi sular və palçıqlar, görməli yerlər, yaxşı mehmanxanalar və dil baryerinin olmaması. Azərbaycanın paytaxtı Bakı bir qədər Parisə oxşayır. Fransada olduğu kimi tikilmiş yaşayış evləri, bulvarlar və parklar... Əbəs yerə XIX əsrdə bu gözəl şəhər Şərqin Parisi adlandırılmırdı.

Turizm agentliyi ölkəmizin görməli yerləri, o cümlədən Atəşgah məbədi, İçərişəhər, dünyada yeganə olan Miniatür Kitab Muzeyi, Xalça Muzeyi, Heydər Əliyev Mərkəzi haqqında oxuculara məlumat verir. Bildirilir ki, Bakıda "Eurovision" və birinci Avropa Oyunları, Formula-1 kimi tədbirlər uğurla keçirilib.

# Eldar İbrahimov: "Prezident keçirdiyi mətbuat konfransında çox mühüm məsələlərə toxundu"



"Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında çox mühüm məsələlərə toxundu. Dövlətimizin başçısı əsasən, Vətən müharibəsi, 10 noyabr Bəyanatının imzalanmasından sonrakı mövcud vəziyyət və regionda baş verən proseslər barədə ətraflı şəkildə fikirlərini ifadə etdi. Mətbuat konfransının Xocalı soyqırımının 29-cu ildönümü günündə təşkil edilməsi xüsusi qeyd edilməlidir. Prezident erməni faşistlərinin törətdikləri Xocalı soyqırımının dəhşətli nəticələrini dünya ictimaiyyətinə bir daha xatırlatdı və bu faciənin heç vaxt yaddan çıxarılmayacağını bəyan etdi". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin İntizam komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.

Eldar İbrahimov qeyd edib ki, mətbuat konfransında dünyanın 35-dən artıq media orqanının 50-yə yaxın sualını cavablandıran dövlətimizin başçısı yüksək diplomatik məharət, natiqlik nümayiş etdirdi, bütün aktual məsələlərə səlis, məntiqli, faktlar əsasında münasibət bildirdi. Ünvanlanan bütün sualları təmkinlə dinləyən və tutarlı faktlarla cavablandıran dövlətimizin başçısı yüksək natiqlik bacarığını, peşəkar siyasi xadim olduğunu nümayiş etdirdi.

YAP İdarə Heyətinin üzvü bildirib ki, Prezident İlham Əliyevin hər zaman ilklərə imza atan dövlət başçısı kimi tanınması hamıya məlumdur. Bu mətbuat konfransı da belə oldu, Azərbaycan Prezidenti daha bir ilkə imza atdı. Bu, Prezidentin yerli və xarici media nümayəndələri ilə dörd saatdan artıq davam edən ilk görüşü idi. Mətbuat konfransı artıq dövlətimizin başçısının hər fikrini maraqla dinləyən geniş bir auditoriyanın olduğunu və onun çox önəmli mesajlar verdiyini göstərdi. Bütün dünya Prezident İlham Əliyevin nə qədər uzaqgörən, müdrik siyasi xadim olduğunu bir daha gördü.

Millət vəkilinin sözlərinə görə, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi zamanı 30-dan artıq xarici KİV-ə verdiyi hər bir müsahibə Azərbaycanın informasiya müharibəsində qələbəsinin təminatı idi. Həmin müsahibələrdə dövlətimizin başçısı Ermənistanın işğalçılıq siyasətinin əsl təcavüzkar mahiyyətini ifşa etdi və bu da informasiya müharibəsində ermənilərə çox böyük zərbə oldu, Azərbaycana qarşı qərəzli fikirlər müsbətə doğru dəyişməyə başladı. Yəni əvvəllər üzləşdiyimiz haqsız vəziyyətlər artıq aradan qalxıb, indi situasiya tam fərqlidir. Bu gün dövlətimizin başçısı qalib Azərbaycanın qalib Lideri kimi postmüharibə dövrünün reallıqlarından danışır.

"Cənab Prezidentə ünvanlanan suallar göstərdi ki, beynəlxalq aləmə işğaldan azad olunmuş ərazilərin reinteqrasiyası, Azərbaycanın regionda yeri və rolu ilə yanaşı, dövlətimizin başçısının dünyada gedən proseslər haqqında rəyi də maraqlıdır. Suallar həm də göstərdi ki, bir çox qlobal məsələlərlə bağlı Azərbaycanın sözünə qulaq asmaq, ölkəmizin proseslərə münasibətini öyrənmək istəyən auditoriyanın sıraları genişlənib. Bu da onunla əlaqədardır ki, Azərbaycan artıq regionda yeni reallıq yaradıb. Dövlətimizin başçısı dünya mediasının diqqətini bu reallığa yönəltdi. Artıq dünya ictimaiyyəti yaxşı bilir ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi, qətiyyəti, müdrikliyi sayəsində Azərbaycan məhz öz gücü, iradəsi hesabına erməni işğalına son qoyub, torpaqlarını qaytarıb, öz ərazi bütövlüyünü bərpa edib. Mətbuat konfransı zamanı dövlətimizin başçısı Ermənistandakı revanşist qüvvələrə bir daha xəbərdarlıq etdi. Əlbəttə, razılaşmaların pozulması Rusiya Prezidenti Vladimir Putinin dediyi kimi, Ermənistan üçün intihar olardı. Yeri gəlmişkən, bu günlərdə Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko da qeyd edib ki, rəsmi Moskva Yerevan hadisələrindən asılı olmayaraq, Ermənistanın Dağlıq Qarabağla bağlı üçtərəfli Bəyanata əməl etməsinə ümid edir. O, 10 noyabr Bəyanatına zidd olacaq hər hansı bir hərəkətin böyük bir faciəyə səbəb ola biləcəyini söyləyib", - deyən E.İbrahimovun fikrincə, mətbuat konfransı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, regionda yaranmış yeni reallıqlara və bölgənin gələcəyi ilə bağlı məqamlara aydınlıq gətirilməsi baxımından böyük önəm kəsb edir.

# Dövlətimizin başçısı tutarlı və dəqiq cavabları ilə xarici media orqanlarının diqqətini yenidən Ermənistanın Azərbaycana qarşı soyqırımı siyasətinə yönəltdi



XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı qətliamı Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının acı nəticəsi kimi ermənilər tərəfindən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının bilavasitə iştirakı və dəstəyi ilə törədilib. Faşist ideologiyasına xidmət edən Ermənistan və onun oyuncaq rejimi "qalib" ədası ilə gəzir, Xocalıda törətdikləri vəhşiliklərlə fəxr edirdilər. Bəs biz ötən uzun illər ərzində bu müsibətə necə dözdük, necə səbir etdik? Biz haqqın nazilsə də, üzülməyəcəyinə, müstəqil dövlətimizə, dövlətimizin yürütdüyü siyasətə, xalq-iqtidar birliyinə inanırdıq. Biz dövlətimizin başçısına, Müzəffər Ali Baş Komandanımıza, Ordumuza inanaraq Zəfər qazana bildik. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib. Q.Paşayeva bildirib ki, Azərbaycan Prezidenti 44 günlük Vətən müharibəsi dövründə dünyanın aparıcı media orqanlarına 30-a yaxın müsahibə verdi. Bir yandan Ordumuz irəlilədi, digər tərəfdən Azərbaycan həqiqətləri dünyaya çatdırıldı. Bu həqiqətlər dövlətimizin başçısı tərəfindən televiziya, radio, portal, qəzet, jurnallar vasitəsilə geniş ictimaiyyətə çatdırıldı. Rəşadətli Ordumuz ermənilərin "yenilməz ordu" mifini məhv etdi və sübuta yetirdi ki, Azərbaycan güclü dövlətdir.

"Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da yenidən yerli və dünya ictimaiyyətinin diqqətini onları maraqlandıran məsələlərə yönəltdi. Dövlətimizin başçısı 4 saatdan çox davam edən mətbuat konfransında suallara 4 dildə cavab verməklə rekorda imza atdı. Dövlətimizin başçısı səsləndirilən bütün suallara tutarlı, dəqiq və faktlarla cavab verərək, aparıcı xarici media orqanlarının diqqətini növbəti dəfə Ermənistanın Azərbaycana qarşı apardığı soyqırımı siyasətinə yönəltdi.

Biz Xocalı soyqırımı da daxil olmaqla, Qarabağ, ümumilikdə, Azərbaycan həqiqətlərinin dünyada çatdırılması baxımından çox əziyyətlər çəkmişik. Gəlin görək, 29 il əvvəl Azərbaycan mətbuatı Xocalıda baş verənlər haqqında nə yazırdı?. Bununla müqayisədə, 2021-ci il fevralın 26-da Azərbaycan Prezidenti Xocalı həqiqətlərini dünyaya hansı səviyyədə çatdırdı. Prezidentin "Biz nəyi, necə, nə zaman edəcəyimizi çox yaxşı bilirik" ifadəsini xatırlamamaq mümkün deyil. Dövlətimizin məqsədyönlü xarici siyasəti, eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası sayəsində dünyanın dörd bir yanında Xocalı soyqırımı tanınıb. Dövlətimizin bu istiqamətdə siyasəti davam etdirilir", - deyə deputat qeyd edib.

Qənirə Paşayeva bildirib ki, Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmayacaq və unutdurmayacaq. Bu il Xocalı faciəsinin ildönümünün nisbətən fərqli ab-havada anılması qürurvericidir. Əminik ki, məcburi köçkünlər tezliklə öz yurd-yuvalarına qayıdacaq və doğma Qarabağda həyat yenidən öz axarına düşəcək.

# SOROS FONDU: Azərbaycana






Samantha Power @SamanthaJPower · 2h
I am very sorry that, during our time in office, we in the Obama administration did not recognize the #Armenian Genocide
140 535 1.1K

Samantha Power @SamanthaJPower · 3h
Almost every Armenian-American family was touched in some way by the genocide. Ongoing Turkish denial makes the genocide an open wound
13 171 376

Samantha Power @SamanthaJPower · 3h
Thinking of Armenians everywhere on Armenian Genocide Remembrance Day. 102 yrs ago, Ottoman authorities began a slaughter that wd kill 1.5 m




Patrick Norrell
CNFA

Patrick Norrell currently serves as CNFA's Vice President for Program Development and as CNFA's Input Supply Practice Lead. Previously he was CNFA's Country Director for Georgia where he built and managed programs including the USAID Farmer To Farmer (F2F) and Access to Mechanization (AMP) Programs. Prior to joining CNFA, Mr. Norrell began his career with East West Management Institute of the Soros Foundation, working on collective farm privatization and debt restructuring in Moldova, after completing his Peace Corps service in that country.





**Əvvəli ötən sayımızda**

Soros Fondunun və bu fondun, eləcə də fondun tərkib hissəsində yer alan "Açıq Cəmiyyət İnstitutu-nun", habelə ona bağlı bir sıra qurum və təşkilatların Azərbaycana yenidən can atması faktlarının olması kimsəyə sirr deyil. Ümumiyyətlə, sırf ermənipərəstlik maraqları kontekstində çıxış edən - antitürkçülük, ya da antiazərbaycançılıq istiqamətində fəaliyyət göstərən bu kimi qurum və təşkilatların bilavasitə ABŞ-ın demokratlar qanadına bağlı olmaları barədə də ötən iki yazımızda qeydlərimizi aparmışdıq. Lakin apardığımız araşdırmalar dərinləşdikcə üzə çıxan növbəti faktlar özündə digər sensasiyalı məqamları doğurur. Hətta zamanında Azərbaycanda fəaliyyət göstərmiş sorosçu fondlara bağlı şəxslərin, əslində, kimlərin sifarişlərini həyata keçirdikləri də bizi düşündürməyə vadar edir. Beləliklə...

## Korotçenko: "ABŞ hökuməti maliyyə təşkilatlarını "yumşaq " qüvvə kimi istifadə edirlər..."

Beləliklə, araşdırmamızın növbəti hissəsini Azərbaycanın sadiq və etibarlı dostu, Rusiyanın tanınmış politoloqu, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenkonun ABŞ yardım institutları haqqında dedikləri fikirləri ilə başlamaq istərdik: "ABŞ hökuməti maliyyə təşkilatlarını "yumşaq " qüvvə kimi istifadə edirlər..." Belə qurumlar siyahısına şübhəsiz ki, ABŞ inkişaf Agentliyi (USAİD) də daxildir.

Co Bayden türkləri "faşist" adlandıran ermənipərəst Samanta Poueri ABŞ İnkişaf Agentliyinin (USAİD) rəhbəri kimi görmək istəyir - bəs bu xanım kimdir?

Və məhz bu kontekstdə son dərəcə narahatedici və diqqət çəkən daha bir faktı da nəzərə çatdırmaq yerinə düşərdi. Misal üçün, Co Bayden ABŞ İnkişaf Agentliyinin rəhbəri kimi xanım Samanta Pouerin namizədliyini irəli sürüb. Adıçəkilən xanımın tərcümeyi-halına baxanda məlum olur ki, məhz Corc Sorosa məxsus Açıq Cəmiyyət İnstitutunun maliyyəşdirdiyi səfərlər hesabına bu xanım anidən "tanınmış jurnalistə" çevrilir.

**https://www.politico.com/-blogs/media/2013/06/samantha-powers-history-in-journalism-165456**

Və nəhayət, bütün fəaliyyəti dövründə Samanta Pouer mütəmadi qaydada qondarma "erməni genosidi" məsələlərini dəstəkləyib. Bu məqamları ehtiva edən faktları isə aşağıdakı linkdə oxuya bilərsiniz:

**https://www.nytimes.com/-2019/10/29/opinion/turkey-armenian-genocide-congress.html**

Lakin o, bununla da kifayətlənməyib və sosial şəbəkələrdə də erməni lobbisinin xidmətində dayanıb və fakt olaraq onun tvitterdəki paylaşımlarını da diqqətinizə çatdırır, eyni zamanda, 17 aprel 2006-cı ildə efirə çıxan "erməni soyqırımı" sənədli filmindəki çıxışını da təqdim edirik. Qərəzli və açıq şəkildə milli, irqi baxışları ortaya çıxaran filmin 41-42-ci və 44-45-ci, 53-cü dəqiqələrində çıxış edən Pouer türkləri alman faşistlərinə bənzədir və digər sərsəm fikirlərini səsləndirir.

**https://www.imdb.com/title/t-t0472044/releaseinfo?ref_=ttfc_ql_2**

# "QAYIDIŞ" planının gizlinləri

Beləliklə, haqqında bəhs etdiyimiz bu şəxsin USAİD-də rəhbərlik edəcəyi dövrdə (bu hal daha çox ehtimal olunmaqdadır - R.R.) bu qurumun ölkəmizdəki fəaliyyətindən hansı müsbət məqamları gözləmək olar? Çox yəqin ki, bu xanım iddia etdiyi vəzifəyə təyin olunarsa, USAİD-in ümumiyyətlə, ölkəmizdə qalıb-qalmaması məsələsinə yenidən baxılmalı olacağını düşünmək mümkündür.

### Yenə də Blinken..!

İndi isə qayıdaq cənab Blinkenə. Beləliklə, əvvəlki məqalələrdə bu şəxs haqqında bir neçə maraqlı faktları bölüşdük. Fəqət, araşdırmaları davam etdirərkən əlavə və növbəti məlumatlar da üzə çıxdı. Məsələn, sual yaranır: görəsən, "Şərq-Qərb İdarəetmə İnstitutu" (ŞQİİ) Azərbaycanda ən iri layihəni "qazananda" cənab Blinken harada idi? Bəli, 2009-2013 cü illər ərzində cənab Blinken o vaxt vitse prezident olan Co Baydenin milli təhlükəsizlik məsələləri üzrə müşaviri vəzifəsində çalışır və hətta terrorçu Üsamə bin Ladenin məhvi prosesini izləmə kadrlarında da görünür. Aşağıda təqdim etdiyimiz şəkildə qapının arxasından boylanan göy köynəkli şəxs məhz cənab Blinkendir.

Və əvvəlki yazılarımızda da qeyd etdiyimiz dövlətlərarası saziş əsasən USAİD tərəfindən ölkəmizdə ümumilikdə 4 layihə icra olunmalı idi. Digər layihələrdən birini də CNFA adlı təşkilat "qazanır". Və həmin dövrlərdə CNFA təşkilatının vitse prezidenti olmuş şəxsin tərcümeyi-halına baxanda bunları görürük:

Yəni cənab Norel də öz fəaliyyətini, məhz Sorosa məxsus ŞQİİ institutunda başlayıbmış. Bu da təsadüfdürmü..?

### Bunların heç biri təsadüfi deyil, birbaşa məqsədli planlardır

Eyni zamanda, əvvəlki yazılarımızda qeyd etmişdik ki, ŞQİİ ilk dəfə Azərbaycanda fəaliyyətini 2004-2006-cı illərdə "Beynəlxalq Xilasetmə Komitəsi" adlı təşkilatla birgə həyata keçirmişdi və maraqlısı da budur ki, həmin dövrdə "Beynəlxalq Xilasetmə Komitəsinin" Azərbaycandakı layihəsinə Devid Blood adlı şəxs rəhbərlik edib və ŞQİİ-nu ölkəmizə o gətirib. Daha bir ilginc fakt budur ki, məhz bu şəxs - Devid Blood da 2011- ci ildə fəaliyyətə başlayan və ölkəmizdə CNFA tərəfindən icra olunan layihələrə hazırkı dövrə qədər rəhbərlik edib.

Söz yox ki, bunların heç biri təsadüfi deyil, birbaşa məqsədli planlardır. Yəni qeyd edilənlərin hər birini təhlil edərkən, Sorosun şəbəkələnmə cəhdləri aydın şəkildə görünməyə başlayır.

Yeri gəlmişkən, xatırlada bilərik ki, Devid Blood miqrasiya qanunvericiliyini pozduğuna görə bir dəfə ölkədən deportasiya edilmişdi və onun 5 il müddətində Azərbaycana geri qayıtması yasaqlanmışdı. Lakin sonradan ABŞ-ın Azərbaycandakı o zamankı səfiri cənab Robert Sekutanın şəxsi səyi nəticəsində və əslində, naməlum şəraitdə Devid Blood yenidən ölkəyə qayıda bilmək imkanını bərpa edə bilmişdi.

Qeyd edək ki, ŞQİİ və CNFA Azərbaycana gələndə USAİD layihələrini icra edən təşkilatlara Ronald Glass rəhbərlik edirdi. Belə ki, USAİD-in Rusiyadakı fəaliyyəti rəsmi olaraq 2012-ci ilin sentyabrında yasaqlanmışdı. Məhz Rusiyada USAİD-in ofisinin bağlanması ərəfəsində oradan çıxarılan və Azərbaycana göndərilən cənab Ronald Glass Moskvadakı uğursuzluqların acığını Azərbaycanda çıxmaq istəyir və özünü çox kobud, hətta qaba tərzdə aparmağa başlayır. Misal üçün, dövlət qurumlarına təzyiqlər etməyə başlayır, heç bir səlahiyyəti olmadan tələblər irəli sürür, üstəlik təhdidlər də bildirirdi. Maraqlıdır ki, o bir sıra istiqamətlərdə hətta nailiyyətlər də əldə etməyi bacarır (bu haqda növbəti yazılarımızda qeyd edəcəyik-R.R). Amma onun bu kimi kobud davranışları, həddini aşması faktları hətta ABŞ səfirliyini qıcıqlandırır və o bir ildən sonra Azərbaycandan çıxarılır.

### Soroscular şəbəkəsini Delina Fico tamamlayır

İndi isə qayıdaq ötən yazımızdakı Delina Ficoya. Biz onun haqqında növbəti maraqlı faktları əldə etmişik. Belə ki, bu xanım Albaniya vətəndaşıdır və alban pasportu ilə hərəkət edir. O, Çində anadan olub və ABŞ-da təhsil alıb və müəyyən dairələrin himayəsinə daxil olub. Amma onun bilavasitə Sorosla əməkdaşlıq etməyinə baxmayaraq hələ də məqsədyönlü şəkildə ABŞ vətəndaşlığını almır ki, üçüncü ölkə vətəndaşı olaraq daha çox etimad qazana bilsin. Yeri gəlmişkən, ŞQİİ qeydiyyatdan keçmədiyi üçün onun ölkəmizə turist vizası ilə gəldiyi məlum olub və bu səfərin özü də söz yox ki, bilavasitə qanun pozuntusudur!

Bundan əlavə, hələ 2006-cı ildə Serbiyanın "Fokus" qəzeti bu xanımın aşağıda təqdim etdiyimiz lüt şəkillərini paylaşaraq, onun bu şəkillərdən şantaj məqsədləri üçün istifadə etdiyini ehtimal edib. Lakin bu məsələnin təfsilatları barədə növbəti sayımızda qeyd edəcəyik. Hər halda qarşıda sizləri sensassiya doğuracaq daha heyrətedici faktlar gözləyir...

Beləliklə, Delina Fico həm də LGTB hərəkatının fəal dəstəkləyicisidir və buna görə onun bu sahədəki fəaliyyətinə dair bir çox kollajların qəhrəmanına çevrilib.

Maraqlıdır ki, Delinanın bacısı da korrupsiyada ittiham olunub. Belə ki, Albaniya mətbuatı məhz onun bacısı xanım Albana Ficonu 1 milyon avro (!) məbləğində layihəni qanunsuz yolla əldə etməsində ittiham etmişdi. Necə deyərlər, bu ailədə qanunsuzluqlar və korrupsiya, həmçinin qeyri-ənənəvi yaşayış tərzi bir növ, adət-ənənəyə çevrilib.

**Rövşən RƏSULOV**

*P.S. Növbəti məqalədə Delina Fico-nun ölkəmizdəki siyasi proseslərə müdaxilə cəhdləri, onun səfərləri, görüşləri və digər qanunsuz əməlləri haqqında məlumat veriləcəkdir, habelə ŞQİİ ilə Azərbaycan hökuməti arasında münasibətlərin bir sıra məqamlarına aydınlıq gətiriləcəkdir.*

*(Ardı var)*



## Düsen Kaseinov: Dahi Nizami Gəncəvi haqqında bəhs etmək şərəfli və qürurvericidir



Dünya şöhrətli azərbaycanlı şair Nizami Gəncəvi hamımızın sevimlisi və iftixarıdır. Nizami Gəncəvidən bəhs etmək şərəfli və qürurvericidir. Böyük şairin yaradıcılığı ibrətamiz və düşündürücü olduğu üçün hər zaman böyük oxucu kütləsi qazanıb, sevilib və rəğbət qazanıb. Nizaminin yaradıcılığı təkcə Azərbaycan üçün deyil, dünya bədii ədəbiyyatı üçün tükənməz xəzinədir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseinov bildirib. Prezident İlham Əliyevin 2021-ci ilin Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncam qarşıya böyük və məsuliyyətli vəzifələr qoyduğunu diqqətə çəkən Baş katib Düsen Kaseinov deyib: "1941-ci il oktyabrın 19-da Leninqradın (Sankt-Peterburq) elm və mədəniyyət ictimaiyyəti Nizami Gəncəvi dühasının işığında bir araya gələrək böyük şairin anadan olmasının 800 illiyini təntənə ilə qeyd ediblər. Müharibənin qızğın bir vaxtında, blokada və zoraki mühitə baxmayaraq belə bir mərasimin keçirilməsi böyük Nizamiyə verilən yüksək dəyərin ən mühüm göstəricidir."

## Sarkisyan və Qasparyan nədən danışıblar?

Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının rəisi Onik Qasparyan 2020-ci ilin dekabrında ölkənin üçüncü prezidenti Serj Sarkisyanla söhbət zamanı baş nazir Nikol Paşinyan əleyhinə danışıb və onun tərəfdarı olmadığını bildirib. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, "Hraparak" qəzeti mövzunu inkişaf etdirərək bu barədə yazır.

"Dünən Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan məlumat verib ki, "bir neçə ay əvvəl Milli Təhlükəsizlik Xidməti Onik Qasparyanı dinləyib və Baş Qərargah rəisi ilə Serj Sarkisyan arasında telefon danışığını yazıb və bu səs yazısı tezliklə yayımlanacaq", deyə qəzetin yazısında qeyd olunur.

Məlum olub ki, bu söhbət dekabrda Ermənistanın baş naziri Nikol Paşinyanın Sünik bölgəsinə gedişi zamanı baş verib. Ermənistanın üçüncü prezidenti Serj Sarkisyana isə Onik Qasparyanın Paşinyan bölgəyə getməzdən əvvəl, 19 dekabrda Sünikdə olduğu və beləliklə, baş nazirin 21 dekabr tarixindəki səfərinə heç bir şeyin mane olmaması barədə məlumat verilib.

Bir gün əvvəldən bölgə sakinlərinin Paşinyanı Sünikə buraxmayacaqları artıq məlum idi və bu səbəbdən məsələni yalnız təhlükəsizlik qüvvələri həll edə bilərdi. Baş Qərargah rəhbərinin bu qədər aşağı missiyanı öz üzərinə götürməsi xəbəri Serj Sarkisyanı təəccübləndirmişdi. Serj Sarkisyanın təəccübü barədə danışanda Qasparyan o qədər hiddətlənmişdi ki, o birbaşa əlaqə vasitəsi ilə Serj Sarkisyana zəng vurub və hirslə, "səfərlə əlaqəm yoxdur, bununla necə məşğul ola bilərəm?" demişdi.

Qasparyan o qədər qəzəblənmişdi ki, hətta Paşinyanı əleyhinə də danışmışdı və onun qulluqçusu olmadığını demişdi. Əlbəttə, bu söhbət Milli Təhlükəsizlik Xidməti tərəfindən də qeydə alınıb", deyə qəzet yazır.

***İnam Hacıyev***

# Azərbaycanda insana diqqət və qayğı ali məqsəddir

## Ölkəmizdə insan hüquq və azadlıqlarının təminatı istiqamətində əhəmiyyətli uğurlara imza atılıb

***Demokratik cəmiyyət quruculuğu yolu ilə inkişaf edən Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinə böyük əhəmiyyət verilir. Birmənalı şəkildə qeyd etmək olar ki, insan hüquqlarının təmin olunması sahəsində düşünülmüş, məqsədyönlü dövlət siyasəti həyata keçirilir. Həyata keçirilən siyasətin başlıca istiqamətlərindən birini insan hüquq və azadlıqları sisteminin yaradılması, onların konstitusiyada təsbit edilməsi təşkil edir.***



Bu baxımdan da, bu gün Azərbaycan intellekt baxımdan dünyanın ən inkişaf etmiş, demokratik dövlətlərdən biri kimi tanınır və qəbul edilir. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan parlamenti tərəfindən qəbul edilmiş “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”nda “İnsan Hüquqları haqqında Ümumi Bəyannamə”yə və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşulduğunu bəyan etmiş, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürmüşdür.

### Yeni inkişaf mərhələsində

Tam qətiyyətlə qeyd etmək olar ki, Azərbaycanımızın inkişafının təməl daşı 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra qoyulub. Məhz Dahi Öndərimiz Heydər Əliyevin yenidən hakimiyyətə gəlişindən sonra bütün sahələrdə olduğu kimi insan hüquq və azadlıqlarının təmin olunması ən ümdə məsələlərdən olmuşdur. Aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində demokratik cəmiyyət quruculuğuna nail olunmaqla insan hüquqları ən yüksək səviyyədə təmin olunmuşdur. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Dahi Öndər Heydər Əliyev Konstitusiya layihəsinin hazırlanması zamanı demişdir: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplə, əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”.

Konstitusiyada əksini tapmış bu strateji məqsəd, ilk növbədə, hüquqi islahatları və insan haqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir. Konstitusiyanın III fəsli, bütövlükdə, yeni 48 maddə insan hüquq və azadlıqlarına həsr olunmuşdur. Əsas Qanunun 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir, bu hüquqları və azadlıqları qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qarşısında mühüm vəzifə kimi qoyulur. İnsan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşması vasitəsilə xalqın hakimiyyət funksiyasının həyata keçirilməsində iştirakı, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və bu kimi digər məsələlər Əsas Qanunumuzun mahiyyətini təşkil edir. Milli və ümumbəşəriliyin vəhdətini özündə əks etdirən Azərbaycan Konstitusiyası dünyanın bütün demokratik ölkələrinin təcrübəsinə əsaslanmaqla yanaşı, həm də milli xüsusiyyətləri də nəzərə almışdır. Konstitusiyamızın üçdə birini təşkil edən “Əsas insan və vətəndaş hüquqları və azadlıqları” fəslində əksini tapdı. Sonradan bu sahədə ardıcıl iş davam etdirilərək, Konstitusiyanın özü daha da təkmilləşdirildi.

### Hüquqi dövlət quruculuğu işində mühüm uğurlar əldə edilib

Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında da, məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi möhtəşəm islahatlar nəticəsində demokratik vətəndaş cəmiyyəti, hüquqi və dünyəvi dövlət quruculuğu konstitusiyası, bazar münasibətlərinə əsaslanan güclü iqtisadiyyat, balanslaşdırılmış xarici siyasət və digər sahələrdə mütərəqqi uğurlar əldə olunmuşdur.

Milli Məclisin komitə sədri Əli Hüseynli qeyd edir ki, “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət idarəetməsinin cəmiyyət üzvlərinin maraqları çərçivəsində həyata keçirilməsinin təmin olunması istiqamətində prinsipial addımların atılması xüsusi nəzarətdə saxlayır.Azərbaycanda həyata keçirilən inzibati islahatların başlıca hədəfi idarəetmənin cəmiyyətin gözləntilərinə cavab verməsini təmin etməkdən ibarətdir”. Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Aydın siyasi iradənin, çağdaş hüquqi dövlət quruculuğu işində qısa müddətdə mühüm uğurlar əldə edilməsinin, cəmiyyət həyatının bütün sferalarını əhatə edən demokratik islahatların qətiyyətlə və ardıcıl həyata keçirilməsinin nəticəsi olaraq Azərbaycan BMT-nin yeni yaradılmış İnsan Hüquqları Şurasına üzv seçilmişdir. 2006-cı il mayın 9-da BMT Baş Assambleyasında keçirilən seçkilər nəticəsində Azərbaycanın bu quruma üzv seçilməsi ölkəmizin əldə etdiyi ən mühüm nailiyyətlərindən biridir. Azərbaycan-BMT əlaqələrinin inkişafı, möhkəmlənməsi və ölkəmizin bu təşkilatda böyük nüfuz qazanmasını göstərən ən əhəmiyyətli hadisə isə 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu quruma rəhbərlik etməsi olmuşdur.

Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan “İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına” qoşuldu. Bu zaman o öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman təsisatının yaradılması idi. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında” Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul olundu. Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı sərəncamla “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nı təsdiq etmişdir. İnsan hüquqları aylığı çərçivəsində “Milli Fəaliyyət Proqramı”nın müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

Bir sözlə, həyata keçirilən siyasət Azərbaycanda bütün bu və digər sahələrdə olduğu kimi, insan hüquq və azadlıqlarının təmin olunması, demokratik proseslərin daha da sürtləndirilməsinə xidmət edir. Əminliklə demək olar ki, bundan sonra ölkəmiz bu istiqamətdə daha böyük uğurlara, nailiyyətlərə imza atacaq. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasət bunu cəmiyyətə diqtə etməkdədir.

***İ.ƏLİYEV***

## YAP Tovuz rayon təşkilatı “Şəhid ailələrinə qayğı aksiyası”nı davam etdirir





Yeni Azərbaycan Partiyasının Tovuz rayon təşkilatı “Şəhid ailələrinə qayğı aksiyası” çərçivəsində tədbirləri davam etdirir. Peşə Liseyi ərazi ilk partiya təşkilatının sədri Şahnaz Abbasova YAP Tovuz rayon təşkilatının fəalları Jalə Məmmədova və Cavid Hüseynov və digərləri Koxanəbi kəndində şəhid Ələkbərov Muraz Məzahir oğlunun və Qaraxanlı kəndində Vəlixanov Rövşən Aydın oğlunun ailələrinə baş çəkiblər. Rayon təşkilatının şura üzvü Adil Həsənov isə mədəniyyət şöbəsi ərazi partiya təşkilatının sədri Flora Məsiyeva , təşkilatın fəalları Asif Qasımov və Zöhrə Nağıyeva ilə Dönük Qırıqlı kəndində şəhid Sultanov Nural Yaşar oğlunun ailəsini ziyarət ediblər. Görüşlər zamanı ailələrin qayğıları ilə maraqlanılıb və onlara sosial dəstək göstərilib. Şəhid ailələri bütövlükdə dövlətin bu təbəqə ilə bağlı həyata keçirdiyi tədbirlərdən razılıqlarını bildiriblər. Allah şəhidlərimizə rəhmət eləsin!

***İlham***

# Vaksin qıtlığı başladı: Azərbaycan da bu sıradadır

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi: "Bu günlərdə COVAX tərəfindən daxil olmuş məktubda Azərbaycanı yaxın zamanda müvafiq vaksinlə təmin edə bilməyəcəkləri bir daha qeyd olunmuşdur"**




Dünyanın bir sıra ölkələrində koronavirus əleyhinə vaksin qıtlığı başlayıb. Macarıstanın baş naziri Viktor Orban ölkəsində Rusiyanın Sputnik V vaksininin tətbiqinin vacibliyi barədə danışıb. Baş nazir sözlərini belə izah edib ki, Avropa komissiyası avroməkanda qeydiyyata düşmüş vətəndaşlarını alternativ vaksinlərlə təchiz edə bilmir. "Qərb, ya da Şərq vaksinləri yoxdur, yalnız pisi və yaxşısı var", deyə Orban "Bild" nəşrinə verdiyi müsahibəsində bildirib.

**Macarıstanın baş naziri Orban: "Avropa İttifaqı avropalıları vaksinlə təmin etmək məqsədi ilə "tez və keyfiyyətli" tapşırığını icra edə bilmədi"**

Onun sözlərinə görə, Avropa İttifaqı avropalıları vaksinlə təmin etmək məqsədi ilə "tez və keyfiyyətli" tapşırığını icra edə bilmədi. "Ona görə də mən konstitusiyaya söykənərək cavabdehliyi öz üzərimə götürürəm", deyə macar baş nazir bildirib.

O, qeyd edib ki, Böyük Britaniya, ABŞ, İsrail, Serbiya kimi ölkələr Avropa İttifaqı ölkələrini vaksinlərlə təchiz etmək üçün çoxdan müəyyənləşdirmə aparıblar, ona görə də o vaksinləri olduğu yerlərdə, o cümlədən, Rusiyada və Çində axtarır. Orban eyni zamanda Şərqi Avropa perventiv səhiyyəsinin üstünlüyü barədə bəyan edərək bildirib ki, məhz sovetlərin poliolomelit vaksini bu xəstəliyi Qərbdən daha tez məhv etdi.

Bildirilir ki, Macarıstan artıq Sputnik V Rusiya vaksinini tətbiq etməyə başlayıb. Orbanın özü çinlilərin Sinopharm vaksini ilə aşı olunub. Macarıstanın 5 milyon Sinopharm və 2 millyon Sputnik vaksinləri sifariş etdiyi bildirilir.

**"Vaksinləri istehsal edən şirkətlər kommersiya maraqlarını rəhbər tuturlar və zəngin ölkələrə çoxlu sayda vaksin göndərirlər ki, bunun da nəticəsində vaksinlərin başqa ölkələrə çatdırılmasında fasilələr və gecikmələr müşahidə olunur"**

Qeyd edək ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi mətbuat xidmətinin rəhbəri Aynurə Əhmədova mediaya açıqlamasında bildirib ki, Azərbaycanın da daxil olduğu COVAX platformasının təşəbbüsü çərçivəsində ölkələrin müvafiq peyvəndlə təmin olunmasına dair verilən vədə hazırkı dövrədək əməl olunmayıb. "Bu günlərdə COVAX tərəfindən daxil olmuş məktubda Azərbaycanı yaxın zamanda müvafiq vaksinlə təmin edə bilməyəcəkləri bir daha qeyd olunmuşdur", deyə o bildirib və əlavə edib ki, "COVAX-ın bütün üzv ölkələrlə əməkdaşlığının ədalətli şəkildə davam edəcəyinə, növbəti mərhələdə təxirə salınmadan başqa üzv ölkələrlə bərabər Azərbaycanın da peyvəndlə təmin olunacağına inanırıq".

"Vaksinləri istehsal edən şirkətlər kommersiya maraqlarını rəhbər tuturlar və zəngin ölkələrə çoxlu sayda vaksin göndərirlər ki, bunun da nəticəsində vaksinlərin başqa ölkələrə çatdırılmasında fasilələr və gecikmələr müşahidə olunur.

Bu prosesə məhz COVAX layihəsi çərçivəsində nəzarət edilməli idi, vaksin istehsalçıları qarşısında isə konkret tələblər qoyulmuşdu. Vaksinlərin əksəriyyətinin bir neçə ölkədə yığılması ədalət prinsipinin pozulmasıdır və koronavirus pandemiyası ilə ümumi mübarizəyə mənfi təsir göstərir", deyə məlumatda bildirilir.

**Gürcüstan da problem yaşayır**

Onu da edək ki, hazırda COVAX proqramından narazılığını digərləri ilə yanaşı Gürcüstan hökuməti də ifadə edib. Proqram çərçivəsində, qonşu ölkəyə Pfizer peyvəndi çatdırılmalı idi, lakin onlar COVAX üzvü olan ölkə kimi, öhdəliklərini pozmaq adı ilə, ona vaksin tədarükü qrafikinə əməl etmirlər. Tamamilə aydındır ki, bu, lazımi miqdarda peyvənd dozasını Gürcüstana çatdırmamaq üçün adi bəhanədən başqa bir şey deyil.

***Rövşən RƏSULOV***

## Ekspert açıqladı: "Internetə pul ödəməyə dəyməz"



"İnternet provayderlərinə müraciət edib problemləri onların diqqətinə çatdırdıqda, obyektiv səbəblər irəli sürürlər. Ölkədə internet istifadəçilərinin sayının çoxluğunu və bunun üçün əlavə xərc tələb olunduğunu iddia edirlər". Bunu SİA-ya açıqlamasında siyasi ekspert Azər Həsrət deyib.

Ekspertin sözlərinə görə, Azərbaycanda müstəqil provayderlərin fəaliyyəti üçün heç bir əngəl yoxdur: "Bazarda kifayət qədər geniş alternativ imkanlar var. Dövlət elə şərait yaradıb ki, istənilən provayder öz xidmətini rahat bir şəkildə müştərisinə təqdim etsin. Onlar az xidmət verərək çox müştəri və pul qazanmaq istəyirlər. Bir nəfərin almalı olduğu xidməti eyni zamanda 10 adam arasında bölürlər . Nəticədə, internetin sürət keyfiyyəti aşağı düşür. Bu problem ölkənin bölgələrində də geniş vüsət alıb. Biz bir ildən artıqdır ki, pandemiya şəraitində yaşayırıq və 1 milyondan çox insan təhsil prosesini online (onlayn) müstəviyə keçirib. Yəni, normalda olandan çox əhali internetdən istifadə edir. Regionlarda internetin bərbad olmasının əsas səbəbi inhisarçılıqdır. Bakıda alternativ çox olduğuna görə seçim imkanı var, lakin kənd yerlərində bu belə deyil. Problemi aradan qaldırmaq üçün ilk öncə inhisara son qoymalı, daha sonra isə maddi bazanı izləmək lazımdır.

A.Həsrət onu da qeyd edir ki, vətəndaşlar provayder şirkəti ilə müqavilə imzalayıb, bir sıra vədlər alır: "İndiki halda onların istehlakçı hüquqları kökündən pozulur. İstifadəçilər ödəməni bir gün gecikdirdikdə dərhal internet kəsilir. Amma onlar özləri bizi hansısa səbəbdən rahatlıqla internetsiz qoymağı bacarırlar və konpensasiya etmirlər. Müştərilərə güzəşt etmək, minimum qiymətə maksimum xidmət göstərmək lazımdır. Mobil internet məsələsinə gəldikdə isə, biz buna məcburuq. Lakin qiymət çox bahadır. Keyfiyyəti aşağı, qiyməti yüksək, 30 günlük təqdim olunan və istifadə etməsən belə hesabından avtomatik vəsait çıxan internetə pul ödəməyə dəyməz".

***Ayşən Sadıxzadə***

## Fikrət Sadıxov: Paşinyan hakimiyyətinin uzunluğu atacağı addımlardan asılıdır

***"Ermənistandakı siyasi prosesləri analiz edərkən görürük ki, Paşinyan hələ ki, ölkəni idarə edə bilir. Düzdür son zamanlar müxalifət aktivləşib və bir çoxları hesab edirdi ki, artıq birləşmiş 17 müxalifət partiyası ilə hərbçilər Paşinyanı devirə biləcək, lakin Paşinyan tərəfdarlarının mitinqi onu göstərdi ki, bu elə də asan məsələ deyil.***



Çünki onu dəstəkləyən insanlar da az deyil". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıxov deyib. Ekspertin sözlərinə görə, sağlam düşüncəli insanlar başa düşür ki, Azərbaycanla müharibə etmək mənasızdır: "Revanş nə deməkdir? Onlar yenidən Şuşanı, Ağdamı işğal etmək istəyirlər? Ermənilər artıq bunu dərk edir ki, belə bir şey mümkün deyil. Valideynlərin etirazlarını da gözdən qaçırmaq olmaz. Əsgər valideynləri də övladlarının özgə torpaqlarında ölməyini istəmirlər".

F.Sadıxov vurğulayıb ki, cəmiyyət onu göstərir ki, Paşinyan hələ ölkəyə nəzarət edə bilir və onu dəstəkləyən də az deyil: "Amma bu heç də o demək deyil ki, hazırki vəziyyət uzun müddət davam edəcək. Paşinyanın atacağı növbəti addımlardan çox şey asılıdır. Çünki 10 noyabr bəyanatnın tələblərinin yerinə yetirilməsi məsələsi də gündəmdədir. Rusiya da görünür öz sözünü deyir və Moskva Ermənistana müəyyən təzyiqlər edir. Bu məsələlər hələki gözləmə mövqeyində qalacaq və ölkədə qarşıdurma hələ davam edəcək. İstisna deyil ki, gələcəkdə Paşinyan hakimiyyətdə qala bilməyəcək".

***Aysel Məmmədova***

## Fransalı siyasətçi: "Erməni xalqı sülhün bərpası üçün həqiqətləri bilməlidir"

***"Fransada böyük erməni icması yaşayır və bu da ölkənin üzərinə Azərbaycan-Ermənistan arasında sülhün bərpa olunmasında böyük məsuliyyət qoyur.***



Nəhayət, Fransa həm BMT-nin üzvü, həm də Azərbaycanın dostu kimi məsuliyyətini anlamalı və hərəkətə keçməlidir". Bu fikirləri "Report"un yerli bürosuna açıqlamasında Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının vitse-prezidenti Loran Pultye dü Mesnil bildirib.

Onun sözlərinə görə, Fransa BMT-nin üzvü kimi Xocalı həqiqətlərini öyrənmək üçün istintaqa başlamalıdır: "Bu günədək Fransa üzərinə düşən rolu oynaya bilməyib. Bu ölkə Qarabağ münaqişəsinin həllində də rol oynaya bilərdi. Lakin Fransa bu şansı əldən verib. Ən azı indi Fransa aktivlik nümayiş etdirməli, Xocalı faciəsinin öyrənilməsi üçün beynəlxalq istintaqın başlanması üçün hərəkətə keçməlidir. Biz Fransa prezidenti Emmanuel Makrona müraciət etmişik. Xocalıda faciə baş verib, bu da Fransada yaxından öyrənilməlidir".

Loran Pultye dü Mesnil Xocalı faciəsi haqqında məlumatların hamıya, habelə erməni xalqına çatdırılmasının əhəmiyyətinə də toxunub: "Erməni xalqı sülhün bərpa olunması üçün həqiqətlərdən agah olmalıdır. Ermənilər anlamalıdırlar ki, Ermənistan ordusu və onun başçısı Azərbaycan xalqına qarşı qırğınlar törədib. Hamı həqiqətləri bildikdən sonra sülhə nail olunacaq. Hamı, habelə erməni xalqı, nəhayət, uzun müddətdir Azərbaycan xalqına dəyən ağır itki və ziyanlardan xəbər tutmalıdır". O, Fransanın məsuliyyətini anlaması vaxtının yetişdiyini də bildirib: "Mən Ermənistanda dövlət çevrilişinə cəhd haqqında eşitdiyim zaman çox böyük narahatlıq keçirdim. Bunun arxasında münaqişəyə yenidən girmək cəhdi də ola bilər düşündüm".

# Nikol Paşinyan müxalifəti necə "əydi"?

***İki gün əvvəl Ermənistanın paytaxtında iki mitinq oldu. Baş nazir Nikol Paşinyanın tərəfdarlarının yığışdığı mitinqdə təxminən 50 min, müxalifətçilərin aksiyasında isə 20 min erməni vardı. Mitinqdə çıxış edən Paşinyan deyib: "Son 10 ayda hökumətimiz çoxsaylı səhvlərə yol verdi. Ermənilər qarşısında üzr istəyirəm. Səhvlərimə görə bağışlayın məni. Müstəqil Ermənistanın bütün liderlərinin səhvlərinə görə də üzr istəyirəm".***





Daha sonra Paşinyan onun istefasını tələb edənlərlə bağlı danışıb: "Ermənistanda yalnız xalq kimin hakimiyyətdə olacağını, kimin də olmayacağını həll edə bilər. Hazırda hakimiyyəti xalqdan almaq istəyirlər."

Nikol Paşinyan ölkədə növbədənkənar parlament seçkilərinin keçirilə biləcəyini, habelə Ermənistanın parlament üsul-idarəsindən yarımprezident idarəetmə sisteminə keçidi ilə bağlı konstitusiyaya dəyişikliklər edilməsinin vacib olduğunu vurğulayıb. Belə görünür ki, növbədənkənar parlament seçkiləri Paşinyan üçün sərfəlidir. Çünki bundan sonra da qeyri-müyyən müddətə hakimiyyətdə qalacaq. Daha sonra seçkilər olacaq və Paşinyan əleyhdarlarına böyük üstünlüklə qalib gələcək.

17 hərəkat və partiyanın birləşdiyi "Vətənin xilası" hərəkatının fəaliyyəti isə keçirdiyi aksiyalardan görünür. Ermənistan müxalifəti hələ ki, Nikol Paşinyana bütün istiqamətlərdə və müstəvilərdə uduzmaqdadır. Növbədənkənar parlament seçkilərinin keçirilməsi üçün isə "Çiçəklənən Ermənistan" Partiyasının bu təkliflə razılaşması lazımdır. Kriminal oliqarx Qagik Sarukyanın məsələ ilə bağlı Nikol Paşinyanla sövdələşməyə gedəcəyi əsla şübhə doğurmur. Erməni analitiklərinin qənaətinə görə, səbəb sadədir: Sarukyan əqidəli inqilabçı, asket və ya mənəviyyatlı insan deyil. O, siyasətə alver və külli miqdarda sərvət əldə etmək məqsədi ilə gəlib.

Bir neçə ay geriyə baxsaq görərik ki, Nikol Paşinyanın hakimiyyətdən kənarlaşdırılması ilə bağlı Ermənistan müxalifətinin aktivləşməsi hələ İkinci Qarabağ müharibəsi zamanı başlanmışdı. Sabiq prezidentlər Serj Sarkisyanla Robert Koçaryan əslən Qarabağdan olan ermənilərin klanının rəhbərləri kimi qisas almaq, revanşı gerçəkləşdirmək və Paşinyanı devirərək hakimiyyətə qayıtmaq üçün əllərindən gələni edirdilər. Ermənistanın müharibədə məğlubiyyəti isə "qarabağlı"lara Paşinyanı devirmək üçün çox əlverişli və rahat şərait yaratmışdı. Lakin artıq dördüncü aydır ki, Nikol Paşinyan əleyhdarlarının bütün cəhdlərinə və səylərinə, aksiyalarına və intriqalarına baxmayaraq hakimiyyətdədir, getməyə də hazırlaşmır.

Paşinyanın mitinqi İrəvandakı "inqilab" dönəmindəki yürüşlərlə müqayisədə dəfələrlə azsaylı olsa da, müxalifətin mitinqindən daha izdihamlı idi. Bu isə Ermənistanda hazırkı müxalifətin faktiki fiaskoya uğradığını göstərir. Ona görə də Onik Qasparyanın və generalların hərbi çevriliş cəhdi də alınmadı. Onun başçılıq etdiyi 39 general günlərlə müzakirələr apardılar, xəbərdarlıqlar etdilər və beləcə vaxtı uzadaraq təşəbbüsü əldən verdilər.

Ermənistanda generallar Paşinyana qarşı olsalar da, daha aşağı rütbəli zabitlər generalları dəstəkləmirlər. Çünki onlar bilirlər ki, İkinci Qarabağ müharibəsində Ermənistanın məğlubiyyətini şərtləndirən səbəblər arasında ölkə generalitetinin rüşvətxorluğu, bacarıqsızlığı, korrupsiyası və intriqaları xüsusi yer tutur. Yayılan bir məlumatda bildirilir ki, ABŞ-dan generallara gözağartması verilib və onlar Paşinyan üçün zərərsizləşdiriliblər. Belə şəraitdə general-polkovnik Onik Qasparyan açıq-aşkar müxalifəti dəstəkləyərək ordunun küçələrə çıxmasına əmr versəydi, elə silahlı qüvvələrin özünün sıralarında parçalanma və qarşıdurma başlayacaq, ölkə qanlı vətəndaş müharibəsinə düçar olacaqdı.

Ermənilərin tam əksəriyyəti vətəndaş müharibəsi ilə yanaşı, övladlarının Qarabağa hərbi xidmətə göndərilməsinə qarşıdır. Yəni, sadə ermənini indi nə Qarabağ, nə də Serj Sarkisyanla Robert Koçaryanın hakimiyyət iddiaları maraqlandırır. Əhalinin marağı öz övladlarını öz damlarının altında sağ-salamat görməkdir. Erməni generalitet də komandasının yerinə yetiriləcəyinə əmin olmadığı üçün hakimiyyəti ələ keçirməklə bağlı əmr verməyə cəsarət etmədi. Nəhayət, Paşinyanın istefasını tələb edən bəyanatı imzalayan generalların istisnasız olaraq hamısı Qarabağ erməniləridir, yəni Robertlə Serjin təsiri altındadır. Ermənistan əhalisi onları dəstəkləmir.

Müşahidələr göstərir ki, Nikol Paşinyanın hakimiyyətdə qalması onun bacarıqlı, ağıllı və ya intriqalar ustası olması ilə bağlı deyil. Tam əksinə, Paşinyan böyük siyasətdə bisavad, piyada, cahil, mənəviyyatsız, əxlaqsız və düşük bir insandır. Ancaq onun uğurunun səbəbi erməni toplumundadır. Məlumdur ki, Ermənistan əhalisi hakimiyyətə rəğbət bəsləmir, həm yeni rəhbər və müharibə istəmir, həm də müxalifətin baş nazir postuna real namizəd qismində göstərdiyi adamlara nifrət edir. Məhz buna görə də Paşinyan narahat olsa da, özünü məğlub hesab etmir. İkinci Qarabağ müharibəsi biabırçı məğlubiyyətlə başa çatandan sonrakı ilk günlərdə onun mövqeləri həddən artıq laxlasa da, indi möhkəmdir və bundan sonra sonadək mübarizə aparacağı aydındır. Necə deyərlər: "Bu xəmir hələ çox su aparacaq."

***Vəli İlyasov***

# Ermənistan XİN-də də vəziyyət nəzarətdən çıxdı: İstefalar...Təyinatlar...

***Ermənistan XİN-də vəziyyət gərgin olaraq qalmaqda davam edir. SİA xəbər verir ki, bu barədə ermənilərə məxsus ArmVoice teleqram kanalı yazır.***



Məlumata görə, KİV-lərdə də verilən informasiyadan bəlli olduğu kimi, XİN Ermənistanın baş qərargahını dəstəkləməklə bağlı bəyanat səsləndirməyə hazırdır. Məhz həmin informasiyalardan sonra baş nazir Nikol Paşinyan sərt şəkildə nazir Ara Ayvazyandan həmin informasiyanın həqiqəti əks etdirməməsi barədə rəsmi bəyanat verməsini tələb edib. O, eyni zamanda sözügedən qərara dəstək göstərən səfirlərin də adlarının açıqlanmasını XİN rəhbərindən istəyib.

Lakin Ara Ayvazyan Nikol Paşinyanın tələbinə riayət etməyib və əksinə, təsdiq edib ki, XİN-nin 80% əməkdaşları baş qərargahı dəstəkləyir. Yalnız yerdə qalan 20 %-i dəstək göstərməkdən imtina edərək Paşinyan iqtidarını, həmçinin müdafiə nazirinin müavini Armen Gevondyanı (onun Paşinyan tərəfindən yeni xarici işlər naziri təyin olunması gözlənilir-R.R.) dəstəklədiklərini bildiriblər. Gevondyan həm də nazir müavinləri arasında yeganə şəxsdir ki, qiyamçılara deyil, mövcud iqtidara tərəf çıxış edir.

"Çox yəqin ki, Paşinyan məhz Gevondyanı XİN-nin rəhbəri təyin etmək istəyir", yazan teleqram kanalı bildirir ki, ötən gün onunla Paşinyanın arvadı Anna Akopyan görüş keçirib və Gevondyan xarici diplomatik idarəyə rəhbərlik etməyə razılıq verib. Lakin onu, eyni zamanda, Moskvanın reaksiyası narahat edir. Belə ki, Gevondyan Moskva üçün arzuolunmaz şəxslər kateqoriyasına daxil edilib.

***Rövşən RƏSULOV***

# Vazgen Manukyan: "Ordu Paşinyanın qərarına tabe olmayacaq"

***Hadisələrin gələcək inkişafı "parlamentin qapılarının arxasındakı ordudan" asılıdır və əgər Ermənistanın baş naziri Nikol Paşinyan Silahlı Qüvvələrin Baş Qərargah rəisi Onik Qasparyanı istefaya göndərmək qərarına gəlsə, ordu itaət etməyəcək. SİA Ermənistana məxsus armenian-report.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri müxalif "Vətənin Xilası Hərəkatı"dan baş nazir vəzifəsinə vahid namizəd Vazgen Manukyan deyib.***



"Söhbət, bir nəfərdən və onun vəzifəsindən deyil, ordunun nüfuzundan gedir. Əgər vəzifəsindən getsə, Baş Qərargah rəisi Paşinyan hakimiyyətinin ilk günlərində olduğu kimi, hərbçilər yenidən itaət etməyəcək", deyə Manukyan qeyd edib.

Müxalifətçi əlavə edib ki, hadisələrin gələcək inkişafı "parlamentin qapılarının arxasında dayanan və səs bombası ilə silahlanmış ordudan" asılıdır. Eyni zamanda, o hakimiyyətin müxalifətə qorxu aşılamağa çalışdığına və xüsusi vasitələrdən istifadə etməyəcəyinə inanır.

***İnam Hacıyev***

# Azərbaycan-Türkiyə: ən çətin anların sınağından çıxan qardaşlıq

***Dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.***

Sözsüz ki, bu, danılmaz faktordur ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq. Qeyd edək ki, Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Belə ki, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır". Bu gün isə Ermənistanın təcavüzkar siyasətinə qarşı mübarizəsində Türkiyə qardaş dövlətin Azərbaycanla həm cəbhədə, həm də diplomatik səviyyədə mübarizədə yanında olması bu qardaşlığın daha möhkəm olduğunun göstəricisidir.



*Seyfəddin Əliyev, YAP Masallı rayon təşklatının sədri*

Prezidenti İlham Əliyev çıxışlarında dönə-dönə vurğulamışdır ki, erməni hərbi birləşmələrinin təxribat hücumuna başladığı ilk gündən qardaş Türkiyə qardaşının - Azərbaycanın yanında oldu. Bu dəstək davam edir və Türkiyə rəhbərliyi işğala son qoyulana qədər hərbi əməliyyatları dəstəkləyəcəyini bəyan edib və bu gün də bu dəstək davama etməkdədir.

"Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu",- deyən dövlət başçımız onu da vurğulayıb ki, çoxları bunu anlamırlar: "Bəziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı. Bəlkə də başqa kimsə burada, necə deyərlər, bulanıq suda balıq tutmağa çalışacaqdı. Ona görə bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik".

### Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan

Hər zaman olduğu kimi, bu gün də Azərbaycanın Qələbə Zəfərində də birlik nümayiş olundu. Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan kimi: "Ermənistan Qarabağı 30 il işğal altında saxladı. O torpaqlar kimindi? Azərbaycanlı qardaşlarımızın. Azərbaycan öz gücü ilə işğalda olan torpaqlarını azad edib. Biz də əlimizdən gələn dəstəyi verdik və artıq Qarabağ sahiblərinin əlindədir".

Türkiyə Prezidenti onu da bildirib ki, hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir: "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır".

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında da Türkiyə-Azərbaycanın güclənən birliyindən, xüsusilə də Silahlı Qüvvələrin bütün dövrlərdə bir yerdə olmaları ilə bağlı mesajını verdi. Dövlət başçısı bildirdi ki, bütün dövrlərdə Türkiyə və Azərbaycan Silahlı Qüvvələri bir yerdə olub: "Mən sualların birinə cavab verərkən dedim ki, təkcə 2019-cu ildə 10-dan çox birgə hərbi tədqiqat keçirildi, həm Azərbaycanda, həm də Türkiyədə. Bu il də artıq birinci tədqiqat keçirildi. Ortaq mərkəzin yaradılması Türk Silahlı Qüvvələrinin Qarabağ bölgəsinə gəlməsi deməkdir, Azərbaycan torpağına gəlməsi deməkdir. Hesab edirəm ki, bu, tarixi hadisə sayıla bilər və bu bizi çox məmnun edir. Qeyd etməliyəm ki, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin yaradılması 3 ölkənin müştərək qərarıdır. Ermənistan, sadəcə olaraq, bununla razılaşmalı oldu. Çünki 10 noyabr bəyanatı imzalananda Ermənistan o durumda deyildi ki, buna etiraz etsin. Ermənistan necə deyərlər, öz hayında idi. Əgər başqa bir siyasi və hərbi durum olsaydı, Ermənistan buna etiraz edərdi. Ancaq buna etiraz edə bilmədi və biz də dedik ki, bu mərkəz Azərbaycan ərazisində yaradılır, Ermənistanın nə əlaqəsi var bu işlərə? Ona görə bu mərkəzin yaradılması tarixi hadisə sayıla bilər. Bundan başqa siz də dediyiniz kimi, mən də demişdim ki, Türkiyədən böyük heyət gəlmişdi, 100 nəfərdən çox heyət idi. Minalardan təmizlənmə işləri və təlim kursları aparılıb. Bu, fəaliyyət davam etdirilir. Bundan sonra müxtəlif sahələrdə, hərbi sahədə işbirliyimiz davam etdiriləcək".

Azərbaycan Prezidenti, həmçinin yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında Rusiya-Türkiyə Monitorinq Mərkəzinin fəaliyyətindən danışaraq bildirdi ki, Rusiya-Türkiyə Monitorinq Mərkəzi post-müharibə dövrü üçün çox önəmli bir alət olaraq fəaliyyət göstərəcək: "Rusiya-Türkiyə Monitorinq Mərkəzinin fəaliyyətinə gəldikdə, deyə bilərəm ki, bu da müəyyən mənada noyabrın 10-da imzalanmış Bəyanatda öz əksini tapıb. Orada dəqiq göstərilmirdi ki, bu Rusiya-Türkiyə Monitorinq Mərkəzi olacaq. Amma biz bu Bəyanatı razılaşdıranda bunu müəyyən etmişdik. Azərbaycan öz vəsaiti hesabına bu monitorinq mərkəzini Ağdam rayonunun Mərzili kəndinin yaxınlığında yaratdı. Bütün şərait yaradıldı. Bildiyiniz kimi, monitorinq mərkəzi fəaliyyət göstərir və bunun əsas məqsədi post-müharibə dövründə nəzarət etmək, pilotsuz uçuş aparatlarından da istifadə edərək monitorinq aparmaqdır ki, bu münaqişə zonasında hər hansı bir qarşıdurma olmasın. Əgər olarsa, bunu kim törədib, təşəbbüskar kimdir, günahkar kimdir, bunu təsbit etməkdir. Bu günə qədər, - əgər dediyim o diversiya qrupunun Azərbaycana keçməsini istisna etsək, - hər hansı bir ciddi qarşıdurma olmamışdır. Hesab edirəm ki, bu monitorinq mərkəzi post-müharibə dövrü üçün çox önəmli bir alət olaraq fəaliyyət göstərəcək".

Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbaycanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz!

Göründüyü kimi, bütün bunlar bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir. Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq. Qələbə Zəfəri ilə - Qarabağ Azərbaycandır! Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!".

## YAP Ucar rayon təşkilatı "Şəhid ailələrinə qayğı" aksiyasını davam etdirir



"Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində YAP Ucar rayon təşkilatının nümayəndələri şəhid ailələrini və qazilərimizi ziyarət ediblər. Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə xüsusi diqqət və qayğı göstərilir. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Ucarda da şəhid və qazi ailələrinin mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

YAP Ucar rayon təşkilatı da Vətən müharibəsi şəhidlərinin ailələrini ziyarət edir, qayğı və ehtiyacları ilə maraqlanır, kömək və yardımların edirlər. Rayon təşkilatının sədri Şəhla Abdullayeva və aparat əməkdaşları görüşdə şəhidlərimizin qəhrəmanlıq dastanına çevrilən döyüş yoluna nəzər saldılar, möhtərəm Prezidentimiz, Azərbaycan Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında igid əsgər və zabitlərimizin döyüş meydanında qazandığı möhtəşəm Qarabağ Zəfərinin xalqımız üçün tarixi əhəmiyyətini xüsusi vurğulayıb. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi Şəhidlərinin ailə üzvləri, qazilər, Müzəffər Ordunun qalib əsgərləri daima Yeni Azərbaycan Partiyasının xüsusi diqqət və qayğısı mərkəzindədir.

YAP Ucar rayon təşkilatının üzvləri Vətən müharibəsi zamanı itkin düşmüş Mirzəli Mehdiyevin ailəsini ziyarət edib. Birinci Qarabağ müharibəsi zamanı, 1994-cü ilin fevral ayında Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə itkin düşmüş Mirzəli Mehdiyev Yəhya oğlunun ailəsini ziyarət edib, ailəsinə maddi yardım göstərilib. Qeyd edilib ki, Mirzəli Mehdiyev 22 may 1968-ci ildə Kəlbəcər rayonunun Barmaqbinə kəndində anadan olub. Həmçinin, şəhid Ayaz Gülaliyevin Hökümalı oğlunun məzarını ziyarət edib, ruhuna dualar oxunub. Daha sonra şəhidin anası Gövhər Gülaliyevanı ziyarət edib, yardım göstəriblər.

Qeyd edilib ki, Ucar rayonun Bərgüşad kəndində anadan olmuş Gülaliyev Ayaz Hökümalı oğlu 26 yanvar 1993-cü ildə Ağdam rayonunun Fərrux dağı yüksəkliyində şəhid olub. Şəhid ailələrinin üzvləri və qazilərimiz onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına, bütün yerli strukturlara təşəkkürlərini bildiriblər. Torpaq, uğrunda ölən varsa, Vətəndir! Allah bütün Şəhidlərimizə rəhmət eləsin!

**RƏFİQƏ**

## YAP Suraxanı rayon təşkilatı şəhid ailəsini ziyarət edib



Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının nümayəndələri Vətən müharibəsində şəhid olmuş və Prezident İlham Əliyev tərəfindən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunan kiçik gizir Süleymanov Tameran Xankişi oğlunun doğum günündə öncə şəhidin əbədi istirahətgahını, daha sonra isə ailəsini ziyarət etmiş və ailənin qayğıları ilə maraqlanmışlar.

Görüş zamanı təşkilat sədri Vüqar Seyidov vurğulamışdır ki, Vətən müharibəsində öz həyatlarını torpaqlarımızın azad olunması uğrunda qurban vermiş qəhrəmanlardan biri də Tamerlandır. O bildirmişdir ki, bütün şəhidlərimizin əziz xatirəsi hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaqdır. Dövlət başçımızın şəhid ailələrinin sosial qayğılarına göstərdiyi böyük diqqət bizlər üçün də nümunə təşkil edir. Tək təsəllimiz şəhidlərin qanlarının yerdə qalmaması və torpaqlarımızın işğaldan azad olunmasıdır. YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov Tamerlanın əziz xatirəsini bir daha yad edərək, təşkilat adından üzərində Vətən Müharibəsi şəhidlərinin simvoluna çevirilmiş "Xarı bülbül" təsvirinin içərisində şəhidimizin şəkli toxunmuş xalça və "Anım löhvəsi" təqdim etmişdir. Göstərilən diqqət və qayğıya görə şəhidin qardaşı Süleymanov Ruslan ailə üzvləri adından öz minnətdarlığını bildirmişdir.

***Zümrüd BAYRAMOVA***

# Ata Abdullayevə cavab verə bilməyən birisi dövlətin və xalqın haqlarını necə qoruya bilər?

***"Eyforiya" ifadəsi qulağa xoş gəlsə də, o qədər yaxşı olmayan bir hissdir. Çünki bu hissi keçirən insanın özü haqqında düşüncələri, hərəkətləri hər zaman real ictimai baxışla tərs mütənasiblik təşkil edir. Elə AXCP sədri Əli Kərimli kimi...***





Bu adamda eyforiya Qənimət Zahid, Tofiq Yaqublu, Seymur Həzi, Emil Səlim, İlham Hüseyn kimilərin daxil olduğu yaltaq dəstəsinin sayəsində yaranıb. Əvvəllər "Osmanqızı", indi isə "Azərbaycan saatı", "Azad söz" youtube kanallarında monoloqları, özünün əvvəlcədən hazırladığı suallara verdiyi şablon cavablar Əli Kərimlidə yüksək eqo da formalaşdırıb. Bununla da, hard, aqressiv musiqinin təsirinə düşüb özünü Ceki-Can, Brus-Li kimi hiss edən uşaqlar kimi Əli Kərimli də özünü çox yüksəklərdə görməyə öyrəşib. Amma real situasiyada əslində nə qədər aciz, savadsız, dözümsüz biri olduğu üzə çıxır.

Əlqərəz, Xocalı soyqırımının 29-cu ildönümü günü Əli Kərimliyə Ata Abdullayev adlı bloqqer-jurnalist sual ünvanlayır. Lakin hər gün Qənimət Zahidin qarşısında əzbərlədiyi dərsini "şparqalkasız" danışan Əli Kərimli Ata Abdullayev qarşısında aciz qalır. Gah hakimiyyəti ittiham edir, gah İlham Hüseyn, Seymur Həzi adlı trolunu güc nümayiş etdirməyə sövq edir, gah da jurnalisti təhqir edib, üzünə tüpürür. Lakin heç bir halda suala cavab verə bilmir. Sual da bilirsinizmi nə haqqında idi? Əli Kərimlinin uşaqlarının ABŞ-da, Britaniyada hansı pullarla yaşaması haqqında...

Yaxşı, başa düşdük ki, Ata Abdullayevin heç də yaxşı imici yoxdur. Yaxud da ki, hər dəfə Əli Kərimlinin qarşısına çıxır, yöndəmsiz suallar verir. Bəs, Əli Kərimliyə nə olub? Axı, o özünü siyasətçi hesab edir. Axı, o özünü hakimiyyətdə görmək istəyir. Axı, o özünü dövləti ən yaxşı formada idarə edə biləcək şəxs kimi təqdim edir. Bəs, niyə bir bloqqer-jurnalistin əlində qalıb, Əli Kərimli? Pis, yaxud yaxşı, Ata Abdullayevin qarşısından qaçan bir siyasətçi sabah bu xalqın və dövlətin maraqlarını, haqlarını necə müdafiə edəcək? Məgər sabah ermənilər Əli Kərimlinin qarşısında qeyri-Ata çıxarsa, o zaman da Əli Kərimli belə qaçacaq, trollarına onu təhqir etdirəcək? Axı, Əli Kərimli özü də bu cəmiyyətə anasını hər gün şillə-təpiyin altına salan, polisə şikayət edən Fatimə Mövlamlı adlı jurnalisti sırıyıb. Fatimə Mövlamlının Ata Abdullayevdən nə fərqi var axı, yalnız cinsi fərqliliyi qarışdırmasaq...

Bir sözlə, Əli Kərimli, sən bu dəfə də özünü yandırdın və siyasətçi olmadığını nümayiş etdirdin. Əgər real siyasətçi görmək istəyirsənsə, Azərbaycan Prezidenti İlham Əliyevə baxıb, həsəd apara bilərsən. Doğrudur, mən heç zaman Əli Kərimli ilə Prezident İlham Əliyevi müqayisə etmərəm. Amma ən azından hər kəsə bəlli olmalıdır ki, siyasət təlxəkləri kimlərdir və əsl siyasətçi necə olmalıdır.

Prezident İlham Əliyev Azərbaycan tarixinin qalib sərkərdəsi, Ali Baş Komandanıdır. O, 44 günlük müharibə zamanı yalnız döyüş əməliyyatlarını idarə etmirdi, həm də təkbaşına 30-dan artıq dünya mediasının suallarını cavablandırırdı. Bu KİV-lər arasında Sky News, CNN International, Fox News, Euronews kimi tezisləri erməni maraqlarını müdafiə edən dairələr tərəfindən verilmiş media qurumları və onların jurnalistləri var idi. Hər kəs şahididir ki, həmin jurnalistlər Paşinyan zehniyyətindən çıxan sualları Prezident İlham Əliyevə ünvanlayırdılar, təxribat törədirdilər. Lakin Prezident İlham Əliyev səbrlə, diplomatik və incə bir üsulla onların cavabını verir, xalqın və dövlətin milli maraqlarını intellektual zirehi ilə müdafiə edirdi. Elə dünən də 4 saat ərzində 35-dən çox dünya mediasının 50-yə yaxın sualını cavablandırmaqla Prezident İlham Əliyev növbəti rekorda imza atmış oldu. Bax, budur, əsl siyasətçi və LİDER...

Müqayisə kimi qəbul edilməsin, yenə də qayıdıram Əli Kərimliyə. Bir Ata Abdullayevin cavabını verə bilməyən Əli Kərimli görəsən, Sky News, CNN International, Fox News, Euronews müxbirləri qarşısında nə edəcəkdi? Yəqin ki, uşaq kimi ağlayardı, ya da vəzifəsini dondurub təlxək siyasətçi kimi qaçardı...

***P.S.** Ötən gün keçirilmiş mətbuat konfransında ispan jurnalist tarixi-siyasi həqiqəti dilə gətirməklə bir daha Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini Avropa miqyasında dilə gətirməklə deyilənləri təsdiqləmiş olur...*

***Ramil Vəlibəyov,***
***YAP-ın Sosial media qrupunun rəhbəri***

## Arşavirin "bağışlanmaz" səhvi

"Ermənistan dövlət olaraq uçurumun astanasındadır". Belə çıxır ki, adicə bir toxunuş belə Ermənistanı gümbultuyla uçurumun dərinliklərinə tolazlaya bilər. Bəs, nə etməli? Deməli, ermənilərin sabiq səlahiyyətlilərindən olan Arşavir Qaramyan erməniləri ehtiyatla uçurum kənarından çəkilməyin yolların göstərəcək. SİA isə bu barədə elə Arşavirin ermənilərə edəcəyi tövsiyələrə istinad edəcək.

Deməli, Qaramyana görə, Ermənistanın milli fəlakətə getməsinin bir neçə səbəbi mövcuddur. Bunlardan birincisi, bu gün erməni xalqının milli xəyalının olmaması, ikincisi isə ermənilərin kilsə inacına olan inamlarının kəsilməsidir. Bax, mən burada birinci səbəblə bağlı danışmaq istəməsəm də, amma ikinci səbəbə görə Qaramyana irad bildirəcəm. Amma o istəsə, lap onunla "mübahisə" də edə bilərəm.

Əvvəla, hər şeydən mən Arşavirə ermənilərin çox dindar bir xalq olduqlarını xatırlatmaq istəyirəm. Bunu mən ona sübut da etməyə çalışaram. İstəsə, mən ona faktlar da təqdim edə bilərəm. Götürək elə, vaxtilə Qarabağda "xaç istehsal edən" erməni sexlərinin bu xaçları Azərbaycanın torpaqlarında basdırmalarının nə məqsəd daşıdığını... Sən heç bu barədə düşünmüsənmi? Məncə, dərindən düşünsəydin, təbii ki, bunu erməni humanizmliyindən irəli gəldiyini qanardın.

Yaxud Qarabağda günahsız insanları öldürən əli qanlı birinin sonradan gəlib Xudavənddə özünü dindar elan edib, keşişlik etməsinin nəyə dəlalət etdiyi barədə necə? Ay səni Arşavir, əlbəttə ki, erməni millətinin "humanizminə, dinə olan inanmına". Yadındamı, o vaxt "qəhrəman erməni ordusu" silahlarını qoyub girməyə dəlik axtaranda, onların tərənnümçüləri olan İrəvan ermənilərı hara gedirdilər, təbii ki, şəhərdəki kilsələrə. Allahdan ermənilərin hifz olunmasını diləyirdilər. Etdikləri haqsızlıqların bağışlanmasını istəyirdilər. Onu da deyim ki, belə şeyləri ermənilərdən başqa heç bir millət bacarmaz.

Əlbəttə, sən indi erməni əhlini milli sahədə nizamsız və iş qabiliyyətli olmamaqda, lap elə müflislikdə ittiham edə bilərsən. Amma, erməniləri humanizmdən uzaq dinsiz bir xalq kimi, ittiham etmək, məncə, sizin üçün bağışlanmaz səhv kimi qəbul edilə bilər.

***Ağasəf Babayev***

# Zatulinin cibxərcliyi həsrəti...

"Ermənistan bu gün yenidən çox ciddi təhlükə ilə üzləşib. Mənə elə gəlir ki, onu vətəndaş müharibəsinə sövq edirlər". Bunu ötən gün Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitə sədrinin birinci müavini, ermənilərin "cib qardaşı" Konstantin Zatulin, ermənilərin digər "cib qardaşı" Vladimir Solovyovun televiziya şousunda deyib. SİA erməni mənbələrinə istinad edir.

Bu gün Ermənistanda vəziyyət, türklər demiş, çox kötüdür: ordu, prezident, Katolikos, Elmlər Akademiyası, aparıcı universitetlər, diaspor strukturları, Rusiyanın erməni iş adamları, onlarla partiya, yüzlərlə ictimai təşkilat, bir sıra yerli idarəetmə orqanları, yaradıcı strukturlar, yüz minlərlə insan və daha nə bilim kimlər Paşinyandan istefa tələb edirlər. O isə tutduğunu buraxmayan kor kimi, getmir ki, getmir.

Amma mənə elə gəlir ki, yoldaş Zatulin deyəndən sonra Nikol artıq düşünməyə başlayacaq. Axı. Zatulin ermənilər üçün elə-belə adamlardan biri deyil, o boyda "Lazarev klubu"nun hörmətli simalarından biridir. Özü də onun Nikola ünvanladığı bu çağırışı məhz Vladimir Solovyovun verlişindən etməsi çağırışa xüsusi hörmətə mindirir. "Nikol Paşinyana bildirdim ki, sədaqət and içdiyin respublikanın taleyi üçün heç olmasa bir damla məsuliyyət daşıyırsansa, hakimiyyəti tərk etməlisən". Daha adama nə deyərlər? Doğrusu, Paşinyanın yerinə danışmaq hüququm olmasa da, amma Zatulin tərəfindən buna bənzər təklif mənə edilsəydi, inandırıram sizi, mən yaşadığım ailəvi yataqxananı belə tərk etməyə hazır olardım.

Amma bütün bunlara baxmayaraq, düşünürəm ki, bu gün Ermənistanda baş nazir olmaq istəyənlərin ən çox qorxusu Nikolun təşkil etdiyi son mitinqə yığılan ermənilərin çoxluğu ilə bağlıdır. Ona görə də, Ermənistanda hakimiyyətə can atanlar bu mitinqi aşağılamaq üçün dəridən-qabığdan çıxırlar. Kimi bu mitinqi bir aktyorun tamaşası, kimi də can verən aktyorun xəyal qırıqlığı kimi qələmə verməyə çalışır. Axı, bu "binəva" Paşınyan nə deyir? Deyir ki, ay erməni qardaşlarım, erkən seçkilər istəmirsiniz, mən getməyə razıyam. Əgər xalq mənim istefamı tələb edirlərsə, mən onlara belə bir fürsəti verirəm: "Gəlin seçkilərə gedək, görək xalq kimin istefasını tələb edəcək". Şəxsən mənə çatmır, əgər bunları Nikol deyib, Ermənistanda yeni baş nazir olmaq istəyənləri erkən seçkiyə çağırırsa, bu halda niyə Vazgenlər, Robertlər, Serjiklər və daha nə bilim baş nazir olmaq istəyən digərləri bunu tərəddüdlə qarşılayırlar?

Maraqlıdır ki, Ermənistanda hakimiyyətə can atan ermənilərin hamısı əminliklə Paşinyanın mitinqinə gələnlərin Nikol tərəfindən "zombiləşdirildiklərini" iddia etmələridir. Mənə elə gəlir ki, onları qorxudan da erkən seçkilərə gələn ermənilərin Paşinyan tərəfindən "zombiləşdirilməyəcəklərinə" zəmanətin verilməməsidir. Doğrudan da, nə qədər də olsa, o da ermənidir axı. Elə on-



dan da nə desən gözləmək olar.

Əslində, bütün bunlar mənim üçün elə də bir önəm kəsb etməsə də, mən yoldaş Konstantin Zatulinin halına açıyıram. Çünki Ermənistandakı bugünkü yiyəsizlik Zatulinin ermənilərdən tulapayı qismində qopardığı beş-altı manat cibxərcliyindən məhrum edib.

...Bircə Ermənistanda işlər yoluna düşsəydi...

***A.Babayev***

## Freedom House: "Ermənistan azad ölkələr arasında deyil"

Ermənistan qismən azad ölkələr arasındadır, yəni, azad ölkələr arasında deyil. SİA xəbər verir ki, bu barədə Freedom House, yayımladığı "Freedom in the World 2021" illik hesabatında qeyd edib. Hesabatın nəticələrinə görə, Ermənistan 100 baldan yarısını toplayıb və qismən azad ölkələr sırasında qərarlaşıb. Hesabatda baş nazir Nikol Paşinyanın müharibədə təslim olması, kapitulyasiyası bəzi müxaliflər arasında şiddətli bir reaksiyaya səbəb olduğu, həmçinin noyabr ayında parlamentə hücum edilərək parlamentin sədrinə xəsarət yetirildiyi də qeyd edilib. "Bu cür pozğunluq ölkənin tərəqqisini təhdid edir", -deyə müəlliflər əlavə ediblər.

Göründüyü kimi, Ermənistanın heç də azad ölkələrdən olmadığı artıq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti tərəfindən etiraf olunur. Hətta bu işğalçı ölkədə baş verən təlatümlərin fonunda müxalifətin itaətsizliyi, eləcə də Milli Məclis spikerinə qarşı təzyiq və xəsarətlər də diqqətdən yayınmadığı özünü büruzə verir. Əlbəttə ki, nümayişçilərə qarşı polis tərəfindən şiddət tətbiq edilməsi və etirazların qarşısının alınması və etirazçılara qarşı təzyiqlər də diqqətdən kənarda qalmır və bu səbəbdən də Emənistanın azad ölkələr arasında olmaması təəccüb doğurmur.

***İnam Hacıyev***

# Donor vasitəsi ilə uşaq sahibi olmaq qadağan ediləcək

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



**Reproduktiv sağlamlıq haqda qanun layihəsinin bəzi müddəaları deputatlar və ekspertlər tərəfindən niyə etirazla qarşılandı?**

Sonsuzluq faizinin bütün dünyada getdikcə artması insanların donor mayalanması ilə hamilə qalmaq üsullarına əl atmasına səbəb olur. Bütün dünyada süni mayalanma metodundan istifadə edilərək uşaq sevinci yaşamaq istəyən ailələrin arzusu reallaşdırılır. Bəs Azərbaycanda donor vasitəsi ilə hamilə qalmaq istəyən nə etməlidir?

### Sonsuzluq statistikası: boşanmaların əsas səbəbi

Rəsmi məlumatlara görə, Azərbaycanda yeni ailə quran cütlüklərin 15 faizə yaxını, qeyri-rəsmi məlumatara görə, 25 faizi sonsuzluq problemi ilə qarşılaşır. Azərbaycan ailələrində sonsuzluq probleminin əsas səbəbləri qadınlarda yumurtalıq, uşaqlıq borusu xəstəlikləri, kişilərdə isə sperma zəifliyi hesab edilir.

Ölkəmizdə sonsuzluq boşanmaların əsas səbəblərindən biri hesab edilir. 2016-cı ildə ölkədə boşanmış 13114 nəfərin 6146-ı uşağı olmayanlar olduğu halda, 2017-ci ildə 14514 boşanma halının 6444-ü bu şəxslərin payına düşüb. 2018-ci ildə Azərbaycanda 14857 boşanma halı qeydə alınıb ki, onun da böyük hissəsi sonsuz ailələrin payına düşüb və bu səbəbdən 6559 nəfər boşanıb.

Əgər 2000-ci ildə hər 100 min nəfər qadından 17.9 faizi sonsuzluğa görə qeydə alınırdısa, 2019-cu ildə bu rəqəm hər 100 min nəfərin 34.4 faizidir. Mütəxəssislər bildirir ki, problemin yaranmasına gərgin iş rejimi, qeyri-sağlam qidalanma, süni yemək əlavələrindən ifrat istifadə, stress və digər amillər səbəb olur. Sonsuzluq ailənin hər iki fərdində olan ayrı-ayrı problemlərdən, habelə irsi olaraq yarana bilər. Qadınlarda yumurtalıq, analıq borusu xəstəlikləri, kişilərdə isə sperma zəifliyi nəticəsində sonsuzluq yaranır.

İndi nəinki dünyada, eləcə də Azərbaycanda süni mayalanma vasitəsi ilə sonsuzluq səviyyəsi minimum həddə çatdırılıb. Lakin bu süni mayalanma yalnız evli cütlük arasında baş verir, atadan sperma götürülərək ana bətninə yerləşdirilir. Donorla mayalandırma isə, atası məlum olmayan uşaqların doğulması deməkdir, el arasında buna "bic doğulma" deyirlər və cəmiyyətimizdə bu, çox pis qəbul olunur.

### Donor vasitəsi ilə hamiləlik necə olur?

İlkin mərhələdə qadının ərinin spermatozoidlərinin olmadığı hallarda və ya müəyyən səbəblər üzündən öz cinsi hüceyrələrindən istifadə etmək mümkün deyilsə, sonsuzluq donor spermatozoidləri vasitəsilə aradan qaldırılır. Həmçinin müalicənin bu üsulu ana olmaq istəyən tənha qadınlar üçün də aktualdır. Düzdür, indi eynicinslilərin evliliyindən sonra qadın cütlüklərin də daha çox donor vasitəsi ilə hamilə qalması hallarına da rast gəlirik.

Qaydalara əsasən donorlar mütəmadi olaraq aparılan müayinələr nəticəsində genetik və yolxucu xəstəliklər aşkar edilməmiş, sağlam könüllülər olmalıdır. Götürülmüş bütün nümunələr yarımillik karantin dövrü keçməli və yalnız testlərin nəticəsində keyfiyyəti təsdiq olunduqdan sonra istifadə edilməlidir. Amma beynəlxalq sperma bankının donor spermatozoidləri istifadə üçün təhlükəsizdir, çünki olduqca ciddi bir şəraitdə bütün yoxlamalardan keçirilir.

Donor sperması, donorun xarici görünüşünə, bədən quruluşu, gözlərin və saçların rəngi və s. əsaslanaraq seçilir. Amma ölkəmizdəki bəzi klinikalar beynəlxalq sperma bankından əlavə özünün donor spermasi bankına da malikdir.

### Naməlum donordan hamilə qalmaq?

Azərbaycanda donorla mayalandırma məsələsinin daha geniş aparıldığı xəstəxanaların rəhbərliyi və personalı nədənsə bu mövzuda sorğu-sualdan qaçır. Bir neçə klinikadan telefonla məlumat almaq cəhdi də boşa çıxdı. Sonuncu cəhdimiz uğurlu alındı, çünki bu dəfə xəstəxanaya pasiyent kimi zəng etdik. Zəngimiz məsul şəxsə yönləndirildi və bizi maraqlandıran suallara bu cür cavab ala bildik.

Klinika nümayəndəsindən "Mən donor vasitəsi ilə hamilə qalmaq barədə maraqlanıram. Kömək edə bilərsiniz?" deyə soruşdum, əvvəlcə tərəddüd etsə də, sonra cavab verdi: "Əslində, bizdə donor məsələsinə qanunla icazə verilmir. Amma müəyyən istisnalar var. Əgər həyat yoldaşınızın sonsuz olması tibbi cəhətdən sübut edilsə, bu, mümkündür".

Donor seçimi barədə də maraqlanıram, məlum olur ki, pasiyent bu məsələyə qarışa bilməz, sadəcə donorun yerli və ya əcnəbi olmasını təyin edə bilər, qalanları isə klinikanın işidir: "Donoru görə və şəxsiyyətini tanıya bilməzsiniz. Biz onu özümüz seçirik və sizə uyğun olanını təklif edirik".

### Donorla hamiləlik necə və neçəyə həyata keçirilir?

Söhbətimiz əsnasında xəstəxana rəsmisindən donor vasitəsi ilə süni mayalanma üçün məndən nə qədər pul tələb olunacağı barədə də soruşdum. Bildirdi ki, prosedur 2000 manatdır, üstəlik, əlavə dərmanlar da lazım olacaq: "Siz əvvəldən 2000 manat ödəyəcəksiniz, dərman lazım olduqca sizə bildirəcəyik, ödənişini edəcəksiniz. Lazım olacaq dərmanlar ay ərzində təxminən 1000-2000 manat civarında pul tələb edə bilər. Prosedur cəmi 1 ay çəkir. Əgər birinci hamiləlik baş tutmasa, embrion dondurulur və 3 il müddətində istifadə edilə bilər".

Maraqlıdır ki, pasiyent hamiləlikdən qabaq uşağının cinsiyyətini də sifariş edə bilər. Belə ki, istəsəniz qız, istəsəniz oğlan övladınız ola bilər. Amma bunun öncədən müəyyənləşdirilməsi üçün siz əlavə 1000 manat ödəməli olacaqsınız.

Özünü məsul şəxs kimi təqdim edən həmsöhbətimiz "gələcəkdə donor barədə heç bir məlumatım olmayacaq?" sualıma cavab olaraq bildirdi ki, bu haqda sonradan lazım olsa məlumat verilir: "Amma siz yalnız bizim təklif etdiyimiz donorlar arasından biri ilə mayalandırılacaqsınız. Yəni, siz özünüz istədiyiniz adamı gətirə bilməzsiniz ki, məhz o donor olsun".

Qeyd edək ki, donorun xidmətinə görə də ayrıca pul ödəmək lazım gəlir. Belə ki, xəstəxanaya prosedur və mayalanma üçün ödədiyiniz puldan əlavə 1000 manat da donor üçün ödəməli olacaqsınız. Xəstəxana donorun əqli və fiziki cəhətdən tam sağlam olması barədə təminat verdiyini deyir: "Biz bunun üçün sizə 100 faizli təminat veririk. Tam sağlam donor təklif edirik. Çünki o donor olmazdan qabaq klinikamızda tam müayinədən keçir, analizlər olur və əmin oluruq ki, heç bir xəstəliyi yoxdur. Bundan sonra onun spermlərindən istifadə edirik".

### Donor hamiləliyi bacı-qardaş evliliyinə səbəb ola bilər

Yeri gəlmişkən, bir müddət öncə Amerikada qəribə bir hadisə olmuşdu. Davamlı olaraq sperma banklarına donorluq edən bir kişi qəribə bir şok yaşadı. Belə ki, o 150 övladı olduğunu öyrənib və bu da böyük bir qalmaqala səbəb olub. Nyu-Yorkdakı "sperma bank"larından birinin "təminatçı"sı olan donor-kişinin təkcə Birləşmiş Ştatlarda 150 övladı varmış. Donor bankı təminatçıdan bir yox, dəfələrlə istifadə edib və nəticəsi də bu cür olub.

Bu vəziyyətdə gələcəkdə bacı-qardaş evliliklərinin qaçınılmaz olması şübhəsizdir. Bu məsələ barədə də klinika rəsmisinə narahatlığımı bildirdim, davamlı donorluq edən şəxslərlə əməkdaşlıq edibetmədiklərini soruşdum. Bildirdi ki, klinika donordan yalnız bir dəfə istifadə edir: "Donora xüsusi anket verilir və o da heç yerdə donor olmadığını qeyd edir. Amma bizdən əvvəl və ya sonra başqa yerdə donorluq edib-etmədiyini deyə bilmərik".

Beləliklə, aydın oldu ki, əgər ailə sonsuzluqla qarşılaşıbsa, kişi spermatozoidləri yetərli deyilsə və qadın donor vasitəsi ilə hamilə qalmaq istəyirsə, o zaman 5000 civarında pul xərcləməli olacaq. Üstəlik gələcəkdə, onun uşağı öz bacısı və ya qardaşı ilə evlənə bilər. Bu isə artıq bioloji və mənəvi faciədir.

### Professor: "Belə şey ola bilməz, bu, biabırçılıqdır"

Qeyd edək ki, bir müddət əvvəl Milli Məclisdə "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsi müzakirəyə çıxarılanda bu layihə birmənalı qarşılanmadı və qanunun qəbulu da surroqat analıq, o cümlədən donor bankı məsələsinə görə reallaşmadı. Həm deputatlar, həm də ekspertlər buna sərt reaksiya verdilər.

Professor Rəşid Mahmudov "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsini şərh edərkən deyib ki, bu qanun biabırçılıqdır, belə qanun ola bilməz: "Xüsusən də, yad donorla uşaq dünyaya gətirmək. Allahın buyurduğu kimi və təbiətin qanunlarına uyğun olaraq qadınla kişi evlənib ailə qurmalı və nəsil artırmalıdır. Amma reproduktiv qanun o deməkdir ki, ailə olmayacaq, bəzi qadınlar harada istəsə lotuluq edəcək, kiminləsə qanunsuz yaşayacaq, atası məlum olmayan uşaq doğacaq. Belə şeylər bizə yaraşmır. Məhz buna görə kişi deputatlar bu qanunun qəbul olunmasına qarşıdır. Belə şey ola bilməz. Birincisi, biz müsəlmanıq və mənəvi dəyərlərimiz var. İkincisi isə bioloji qanunlar var ki, onlara zidd getmək olmaz, bu sonra ağır nəticələr verir".

Rəşid həkim hesab edir ki, bunu təklif edənlərin məqsədi Avropanın pis adət və ənənələrini Azərbaycana gətirməkdir: "Bu, nə qanundur? Zorla uşaq yaradacaqsan? Uşağı olmursa, sahibsiz bir uşağı götürsün. Mən belə qanunun qəbul olunmasının əleyhinəyəm".

Beləliklə, "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsinin uzun müddət müzakirə edilməsinin və qəbul edilməməsinin səbəbləri də surroqat ana və donorla bağlıdır. Bir çox ölkələrdə surroqat ana və donordan istifadə qadağan olunub. Mənəvi və hüquqi məsələlər biotexnologiyaların inkişafında çox qabarıq ortaya çıxmalı və ciddi düşünülməlidir.

Məlumatlara görə, əksər deputatların etirazı və ictimai qınaqlardan sonra qanunda mübahisə predmeti olan "surroqat ana" və donorluq məsələləri sənəddən çıxarılıb. Artıq Qafqaz Müsəlmanları İdarəsindən də qanun layihəsinə ciddi irad yoxdur. Bu düzəlişlərdən sonra yaxın vaxtda qanunun qəbulu gözlənilir.

*Leyla*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

4 mart

# Ronaldo 600-ə çatdı



"Yuventus"un futbolçusu Kriştiano Ronaldo çıxış etdiyi komandalarla yerli çempionatda 600-cü matçını keçirib. Qol.az "Opta"ya istinadən xəbər verir ki, o, buna ötən gecə "Spezia" ilə görüşdə (3:0) iştirak etməklə nail olub. Həmin oyun 35 yaşlı hücumçunun Turin təmsilçisi ilə çıxdığı 85-ci qarşılaşma kimi qeydə alınıb. Ronaldo "Mançester Yunayted"lə Premyer Liqada 196, "Sportinq"lə əsas liqada 27, "Real"la La Liqada isə 192 matç keçirib.

Beləliklə, portuqaliyalı oyunçu forma geyindiyi komandalarla yerli çempionatda toplam 600 görüşdə iştirak etmiş olub. Qeyd edək ki, Ronaldo bu mövsüm bütün turnirlərdə 29 matça çıxaraq, 26 qol vurub 4 qolun ötürməsini verib.

# İbrahimoviç: "Bu səhnədə ən yaxşı mən olacağam"



"Milan"ın futbolçusu Zlatan İbrahimoviç San-Remoda qatıldığı musiqi festivalından maraqlı açıqlamalar verib."Football İtalia"nın yazdığına görə, 39 yaşlı hücumçu deyib: "Burada olmaq mənim üçün böyük şərəfdir. Ümumiyyətlə, həmişə özümü böyük və güclü hiss edirəm. Amma burada özümü kiçik hiss edirəm.

Burada rəqabət qaydalarından danışsaq, 22 müğənni iştirak etməlidir. Futbolda olduğu kimi, 11 nəfər 11 nəfərə qarşı. İndi festivalda 26 müğənni var. Onların 4-nü sata bilərik. Hətta "Liverpul"un oyunçu axtardığını da eşitmişəm. Başqa halda onları bağçaya göndərin. Mən onları işlədəcəyəm.

İkinci qayda isə səhnə ilə əlaqədardır. Çox kiçikdir və sizin kimi insanlar üçün hazırlanıb. Səhnənin "San Siro"nun meydançası kimi 105-68 metr arasında olmasına ehtiyacım var. Stressli deyiləm. Narahat olmayın. Zlatan burada olduğu müddətdə hər şey yaxşıdır. Zlatan festivalı 90 dəqiqə davam edir. Bu səhnədə ən yaxşı mən olacağam. Yalnız bu gecə deyil, həmişə".

Qeyd edək ki, Zlatan sabah "San-Remo" mahnı festivalında "Bolonya"nın baş məşqçisi Sinişa Mixaloviçlə duet oxuyacaq. Onlar Normadi qrupunun hazırladığı "Lo Vagabondo" (Mən avarayam) kompozisiyasını təqdim edəcəklər.

# Acı bibər yemək ölüm riskini azaldır



Amerika Kardiologiya Assosiasiyası tərəfindən aparılan araşdırmalara görə, acı bibərdən (çili) müntəzəm istifadə etmək ölüm riskini dörddə birə qədər azalda bilir. Bu barədə "Express" nəşriyyatının çap etdiyi materialda bildirilir. Tədqiqatçılar bir sıra ölkələrdən olan 570 mindən çox insanın məlumatlarını təhlil ediblər. Mütəxəssislər insanların qidalanma vərdişlərinin bir-biri ilə əlaqə prosesi, təhlükəli xəstəliklərin yaranma riski və ölüm halları ilə maraqlanıblar. Layihənin müəllifləri belə qənaətə gəliblər ki, kəskin qidalara meyillilik ölüm riskini nəzərəçarpacaq dərəcədə azaldaraq həyatı uzada bilər.

"Rasionlarında daim acı bibər olan insanlarda ürək-damar xəstəliklərindən ölmək ehtimalı 26 faiz, xərçəngdən isə 23 faiz azalır", - deyə alimlər qeyd ediblər.

Elmi ekspertlər hesab edirlər ki, səbəbindən asılı olmayaraq, bibər pərəstişkarları arasında ölüm nisbəti dörddə bir qədər az olur. Bibərin istifadəsinin ölüm riskini azaltdığını izah edən ekspertlər, bunu, sözügedən kəskin məhsulun tərkibindəki komponentlərinin təsiri ilə əlaqələndirirlər. Bibərdən müntəzəm istifadə oksidant, iltihab və xərçəng şişi əleyhinə səmərəli təsir etməklə yanaşı qanda qlükoza səviyyəsinin normallaşmasına kömək edir.

# Kişilərə VACİB TÖVSİYƏLƏR: 8 Martda bu hədiyyələri almayın!




Rusiyanın psixologiya elmləri namizədi Yuliya Koçetova 8 Mart Qadınlar Günü münasibətilə zərif cinsin nümayəndələrinə hədiyyə seçməklə bağlı kişilərə bəzi tövsiyələr verib. Psixoloq kişiləri hədiyyə kimi şirniyyatlardan imtina etməyə çağırıb.

Y.Koçetova ənənəvi şirniyyat və suvenirləri müasir qadın üçün ən pis hədiyyə seçimləri adlandırıb. O, bunu hazırda bir çox qadının çəkisinə diqqət etməsi və sağlam həyat tərzi sürməsi ilə izah edib. Bundan əlavə, psixoloq lazımsız suvenirlər, xüsusən, yumşaq oyuncaqlar, çay dəstləri, heykəlciklər verməyi tövsiyə etmir. Çünki bu cür əşyalar otağın küncünə "toz yığmaqdan başqa" işə yaramır.

Mütəxəssis ən pis hədiyyələr siyahısına şəxsi gigiyena məhsullarını da daxil edib: "Unutmayın ki, bütün xanımların öz seçimi var - məhsulların aromalarından, tərkibindən, markasından, dəri növündən çox şey asılıdır".

Arzuolunmazlar siyahısına məətbəx qabları və məişət texnikaları da əlavə olunub ki, bu da hədiyyənin qadınlar tərəfindən evdarlıq bacarıqlarını artırmaq üçün bir işarə kimi qəbul edilə bilər./publika.az

## Bakıda avtomobil yanıb



Bakıda yanğın olub. Trend-in məlumatına görə, hadisə Xəzər rayonunda qeydə alınıb. "Opel" markalı minik avtomobilinin mühərrik hissəsi və salonu yanıb. Hadisə yerinə cəlb olunan Fövqəladə Hallar Nazirliyinin əməkdaşları avtomobilin qalan hissəsi yanğından mühafizə ediblər. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

# Bakıda mağazadan 10 min manatlıq telefonlar oğurlandı



Bakıda mağazada oğurluq olub. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Yasamal Rayon Polis İdarəsi 27-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki mağazaların birindən 10 000 manat dəyərində 20 ədəd mobil telefon oğurlamaqda şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş A.Yusifov saxlanılıb.

Ətrafında aparılan tədbirlərlə onun paytaxt sakini K.Xasıyevlə birgə Bakı şəhər sakinləri Ü.Kazımlının mopedini, S.Babyevin "Yamaha" və C.Həsənovun "Haojue" markalı motosikletlərini qaçırmaları da müəyyən edilib. Əməliyyat-axtarış tədbirləri nəticəsində K.Xasiyev də saxlanılıb.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600